# Asiya regionu, Monqolustan, Mərkəzi Asiya, Cənubi Qafqaz regionu ölkələrinin Hokkaydo ilə özəl sektor sahəsində əməkdaşlığı ilə bağlı məlumatların toplanması və dəqiqləşdirilməsi məqsədi ilə tədqiqat

## (Azərbaycanla bağlı)

**Mart 2016**

**Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (JICA)**

**Hokkaydo Ümumi Tədqiqat Araşdırmalar Mərkəzi**

**Beynəlxalq İnkişaf Mərkəzi Şirkəti**

| |
|---|
| 3R |
| JR |
| 16-012 |

Mündəricat


1 Araşdırmanın həyata keçirilməsi üçün ön şərtlər ........ 1
2 Araşdırmanın məqsədi ........ 2
3 Araşdırmanın həyata keçirilmə prinsipləri ........ 2
(1) Yaponiya siyasəti ilə çoxtərəfli və ikitərəfli iş görüşmələrinin əlaqəsi ........ 2
(2) Azərbaycanla əlaqədar beynəlxalq vəziyyəti nəzərə almaqla analiz ........ 2
(3) Azərbaycana Yaponiya yardımı fonunda baxılması ........ 3
(4) Hokkaydo texnologiyası və bilikləri ........ 3
(5) Keçmiş uğursuzluqlar fonunda özəl sahədə əməkdaşlığın inkişafının öyrənilməsi ........ 7
4 Araşdırmanın həyata keçirilmə metodları ........ 8
5 Araşdırmanın nəticələri ........ 10
(1) Azərbaycanın özünəməxsusluğu ........ 10
(2) Azərbaycanın qısa icmalı ........ 12
(3) Yaponiyanın dəstək siyasəti haqqında ........ 19
(4) Hokkaydo şirkətlərinin beynəlxalq biznesə maraqları haqqında ........ 19
(5) Yerlərdə araşdırmaların həyata keçirilməsi ........ 21
(6) Gələcək işlər haqqında fərziyyələr ........ 24
6 Azərbaycanda Hokkaydo şirkətləri ilə biznes münasibətlərinin qurulmasının mümkünlüyü ........ 31
(1) Hokkaydo şirkətlərinin gələcək biznes çıxışları haqqında ........ 31
(2) Azərbaycana biznes çıxışları ilə bağlı diqqət yetirməli məqamlar ........ 32
(3) JICA çərçivəsindən istifadənin öyrənilməsi ........ 33
7 Azərbaycanla həmçinin ətraf ölkələrlə özəl sahədə əməkdaşlığa dair araşdırma qrupunun təklifləri (xülasə) ........ 36
(1) Bir neçə ölkəni hədəf seçməklə miqyasın təmin olunması ........ 36
(2) Ətraf ölkələri yandan öyrənmək üçün araşdırmanın həyata keçirilməsi ........ 37
(3) Hokkaydoda məlumat paylaşımı və ətraf ölkələr arasında əməkdaşlığın inkişafı ........ 38

# Qısaltma adlar cədvəli

| Qısaltma adlar | Rəsmi adları | |
|---|---|---|
| ACG | Azeri-Chirag-Gunashli | Azəri-Çıraq-Günəşli |
| ADB | Asian Development Bank, | Asiya İnkişaf Bankı |
| Azpromo | Azerbaijan Export and Investment Promotion Foundation | Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu |
| B&B | Bed & Breakfast | B&B (səhər yeməyi daxil sadə gecələmə yeri) |
| BOP | Base of the Economic Pyramid | Gəliri aşağı olan təbəqə |
| B to B | Business to Business | Şirkətdən Şirkətə biznes |
| BTC Pipeline | Baku-Tbilisi-Ceyhan Pipeline | Bakı-Tbilisi-Ceyhan boru kəməri |
| BTE Pipeline | Baku–Tbilisi–Erzurum Pipeline | Bakı-Tbilisi-Ərzurum boru kəməri |
| CIA | Central Intelligence Agency | Mərkəzi Kəşfiyyat İdarəsi |
| CIS | Commonwealth of Independent States | Müstəqil Dövlətlər Birliyi |
| CSTO | Collective Security Treaty Organization | Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı |
| DFR | Draft Final Report | Son Məruzə Qaralaması |
| EurAsEC | EurAsian Economic Community | Avrasiya İqtisadi Birliyi |
| EEU | Eurasian Economic Union | Avrasiya İqtisadi Qrupu |
| EU | European Union | Avropa İttifaqı |
| FAO | Food and Agriculture Organization | Avropa Birliyi Ərzaq və Kənd Təsərrüfatı Orqanı |
| FS | Feasibility Study | Reallaşdırılması Mümkün Araşdırma |
| FR | Final Report | Son Məruzə |
| GDP | Gross Domestic Product | Ümumi Daxili Məhsul |
| GJ | Giga Joule | Coul（fizikada enerjinin həcmi, istiliyin kəmiyyəti, görülən işin vahidi） |
| GPS | Global Positioning System | Qlobal Mövqetəyinetmə Sistemi |
| GUAM | GUAM（Georgia, Ukraine, Azerbaijan, Moldova）Organization for Democracy and Economic Development | GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat |
| HACCP | Hazard Analysis Critical Control Point | HACCP |
| HIT | Hokkaido Intellect Tank | Hokkaydo Ümumi Tədqiqat Araşdırmalar Mərkəzi |
| ICT | Information and Communication Technology | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| IC/R | Inception Report | İlkin Məruzə |
| IMF | International Monetary Fund | Beynəlxalq Valyuta Fondu |
| INPEX | International Petroleum Exploration Corporation | INPEX |
| IT | Information Technology | İnformasiya Texnologiyası |

| Qısaltma adlar | Rəsmi adları | |
|---|---|---|
| JETRO | Japan External Trade Organization | Yaponiya Xarici Ticarət Təşkilatı |
| JICA | Japan International Cooperation Agency | Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi |
| JOGMEC | Japan Oil, Gas and Metals National Corporation | Yaponiya Neft, Qaz, Metal Milli Kooperasiyası |
| NGO | Non-governmental Organizations | Qeyri-Hökümət Təşkilatı |
| NPO | Not-for-Profit Organization | Mənfəət Güdməyən Təşkilatlar |
| N/A | Not applicable/not available | Uyğun olmayan/İstifadəsi qeyri-mümkün |
| ODA | Official Development Assistance | İnkişafa Rəsmi Yardım |
| PPP | Public Private Partnership | Dövlət-Özəl Sektor Əməkdaşlığı |
| SCO | Shanghai Cooperation Organization | Şanxay Əməkdaşlıq Təşkilatı |
| SCP | South Caucasus Pipeline | Cənubi Qafqaz boru kəməri |
| SOCAR | State Oil Company of Azerbaijan Republic | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| SOFAZ | The State Oil Fund of Azerbaijan | Azərbaycan Dövlət Neft Fondu |
| PR | Public relations | İctimai Əlaqələr |
| TANAP | Trans Anatolian Natural Gas Pipelin | Trans Anadolu qaz boru kəməri |
| USD | US Dollar | Amerika dolları |
| WHO | World Health Organization | Ümumdünya Səhiyyə Təşkilatı |

# 1 Araşdırmanın həyata keçirilməsi üçün ön şərtlər

Yaponiya höküməti tərəfindən kəşfiyyat və işlənmə mərhələlərindən keçdikdən sonra, habelə xarici texnologiyaların fəal tətbiqindən və beynəlxalq təşkilatlar tərəfindən yardım göstərildikdən sonra, Hokkaydoda əsasən kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və dağ-mədən sənayesinin inkişafına yönəlik olaraq sənaye və regional inkişaf siyasəti həyata keçirildi. Bu tədbirlər nəticəsində, Meydzi dövründə (1868-1912) əhalisi cəmi 60 min nəfər olan Yaponiyanın Hokkaydo adası təxminən yüz il ərzində 5,7 milyon nəfər əhalisi olan inkişaf etmiş bir bölgəyə çevrildi. Hokkaydo zəngin, məhsuldar torpaqları, zəngin təbii ehtiyatları və kənd təsərrüfatına uyğun, əlverişli iqlimi ilə zəngin potensiala malikdir. Lakin, bununla yanaşı, sərt və çox soyuq qış, təbii fəlakətlər, məhsul uğursuzluqları və zərərverici həşəratlar sakinlər üçün böyük zərərlərə səbəb olurdu. Buna görə də Hokkaydonun regional inkişafı asan məsələ olmamışdır.

Eyni zamanda, Hokkaydonun əsas sənaye sahəsi olan kömür sənayesinin tənəzzülü, 200 dəniz mili su ərazisinin tədbiq edilməsi ilə dənizçilik təsərrüfatının geriləməsi ilə geniş iqtisadi mühitinin böyük dəyişikliklərə uğraması və Tokyo kimi böyük istehlak məkanından uzaqda yerləşməsinə görə daşımalar üzrə də bir çox problemlərə malikdir. Lakin, hazırda keyfiyyət və qiymət üzrə rəqabət gücü yüksək olan kənd təsərrüfatı məhsullarının istehsalı mümkün olmuş və yavaş-yavaş rəqabət gücünü artırmaqdadır.

Belə bir şəraitdə, Hokkaydo hökümətin inkişaf layihələri və Hokkaydo həmçinin digər orqanların strategiyaları ilə, sənaye, hökümət və akademiyaların təşəbbüs və əməkdaşlığı sayəsində bu problemlərin həllinə çalışdı. Belə hökümət və xalqın əməkdaşlığı sayəsində regionların inkişafı və sənayenin dirçəldilməsi praktikası və metodları, sənaye müxtəlifliyini qarşısına məqsəd qoymuş Azərbaycan üçün də keçərlidir.

Digər tərəfdən SSRİ-yə daxil olan dövlətlər müstəqillik əldə etdikdən sonra Rusiya ilə əlaqələr qoruyub saxlamağa, daha da genişləndirməyə çalışan dövlətlərlə, Rusiya ilə məsafə saxlamağa çalışan dövlətlərə, ümumilikdə iki yerə bölündülər. Rusiya ilə məsafə saxlamağa çalışan dövlətlərdən biri olan Azərbaycan, 1997-ci ildə Gürcüstan, Ukrayna və Moldova ilə birlikdə "Demokratiya və İqtisadi İnkişaf Təşkilatı GUAM" –ı (üzv ölkələrin baş hərflərindən ibarətdir) yaratdılar.

Xüsusilə, xarici şirkətlər tərəfindən resurs sektoruna birbaşa investisiyaların əldə edilməsi və beynəlxalq bazarda xam neft ticarəti sayəsində enerji resursları ilə zəngin Azərbaycan sürətlə inkişaf etdi. Lakin 2014-ci ilin sonlarında dünyada xam neft qiymətinin düşməsi ümumilikdə Azərbaycan iqtisadiyyatına böyük təsir göstərdi. Bu iqtisadi strukturlarının enerji resurslarından yüksək dərəcədə asılı olmasını izah edir və qarşıya sənaye müxtəlifliyinin yaradılması və enerji resurslarından asılı olmayan sahələrdə xarici investorların əməkdaşlığa cəlb edilməsi kimi çox mühüm məsələlər qoyulmuşdur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, bu araşdırma müddətində hər iki tərəf üçün ümumi maraqların tapılması imkanları təhlil edildi. Bu məqsədlə, Hokkaydo özəl müəssisələrinin mövcud texnologiyalarının, resursların, beynəlxalq biznes inkişafının tendensiyaları və əsas istiqamətlərinin öyrənilməsi ilə yanaşı,

Azərbaycanın ehtiyacları və inkişafı üçün tələblərlə bağlı məlumatlar ümumiləşdirildi. Bu işin məqsədi analiz nəticələrinin və digər informasiyanın təmin edilməsilə özəl sektorla bağlı işlərin inkişafının təşviq edilməsi, həmçinin, özəl biznesin inkişafına qatqı təmin edəcək sahələrdə də layihələrin axtarışı və formalaşması olmuşdur (texniki əməkdaşlıq və Yaponiya yeni ilə kreditləri, xarici investisiyalar və s).

## 2 Araşdırmanın məqsədi

Bu araşdırmanın məqsədi Hokkaydo müəssisələrinin, şirkətlərinin sahib olduqları texnologiya və resursların, həmçinin beynəlxalq bazarlara çıxış prinsipləri və istiqamətlərinin, eyni zamanda Azərbaycanın inkişafı üçün lazım olan ehtiyacların öyrənilməsi əsasında hər iki tərəf üçün görülə biləcək işlərin analizi, özəl sahədə qarşılıqlı maraqlara xidmət edəcək əməkdaşlığın, JICA çərçivəsində bundan sonrakı dəstək işlərin (özəl sektorla bağlı layihələr və s) inkişafını öyrənməkdir.

## 3 Araşdırmanın həyata keçirilmə prinsipləri

Araşdırmanın aparılmasında aşağıdakı beş prinsip rəhbər tutuldu.

(1) Yaponiya siyasəti ilə çoxtərəfli və ikitərəfli iş görüşmələrinin əlaqəsi

Bu araşdırmanın inkişaf etdirilməsində Yaponiyanın Azərbaycan hökümətinə olan əməkdaşlıq prinsipləri fonunda araşdırmanın inkişafına, aidiyyatı qurumlarla işlərin səmərəliliyinin əldə ediləcəyinə ümid bəslənilir. Bundan əlavə, digər donorlar təşkilatları və ölkələrlə ola biləcək əməkdaşlıq haqqında da fərziyyələr irəli sürdük.

(2) Azərbaycanla əlaqədar beynəlxalq vəziyyəti nəzərə almaqla analiz

Resurs qiymətlərinin dəyişkənliyi Azərbaycan iqtisadiyyatına tam təsiri nəzərə alınır. Həmçinin, Rusiya, Türkiyə, Çin kimi yaxın ölkələrin iqtisadi və siyasi təsirlərinə də diqqət yetirilməlidir. Şimal sərhəddində yerləşən Rusiya, Azərbaycanlı əməklilər üçün pul qazanmaq üçün bir məkan olmaqla yanaşı, təzə meyvə-tərəvəzin ixrac edildiyi bazardır. Hazırda, iqtisadi vəziyyətin pisləşməsi ilə əlaqədar olaraq pul qazanmaq məkanlarının azalması ilə, Rusiya və Avropa İttifaqının siyasi münasibətlərinin pisləşdiyi bir ortamda, Azərbaycan Rusiya bazarlarını təzə meyvə-tərəvəzlə təmin edəcək ölkə kimi öz xüsusi vacib rolunu artırmaqdadır. Həmçinin, milli və dil oxşarlığı baxımından Türkiyə, Azərbaycana enerji strategiyası üzrə ən vacib ölkə kimi baxmaqla yanaşı, Azərbaycanda tikinti sektoru, otel idarəetməsi, ərzaq məhsulları və s özəl biznesdə böyük təsir gücünə malikdir.

Çin Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin enerji resurslarına böyük maraq göstərir, o cümlədən, Azərbaycanla iqtisadi mübadilələrini artırır, malların distribusiyası və transaksiyaların axınının təşkili üçün əlverişli mühit yaratmağa çalışır, həmin ölkəni öz istehlak malları üçün satış bazarı olaraq düşünür. Cənubi Koreya da həmçinin Yaponiya mallarına oxşar malları və texnologiyaları (maşın, avadanlıq, tikinti

materialları, habelə müxtəlif texnologiyalar) ilə Azərbaycan bazarına girmək üçün yollar axtarır. Bu məhsullar və texnologiyalar yerli istehlakçılar tərəfindən onların sabit keyfiyyəti və rəqabət qabiliyyətli qiymətinə görə olduqca xoş qəbul edilir. Eyni zamanda, Azərbaycan çoxtərəfli əməkdaşlıq və mübadiləni stimullaşdıran müxtəlif çərçivələrdə iştirak edir və bunları diqqətə almağa ehtiyac vardır.

Cədvəl 3-1. Azərbaycan da daxil olmaqla Monqolustan, Mərkəzi Asiya, Cənubi Qafqaz ölkələrinin Beynəlxalq Təşkilatlara daxil olma şəraiti

| № | Ölkənin adı | GDP (2014-cü il, Dünya Bakı, mlrd dollar) | Təşkilatın adı və üzv ölkələrin sayı | | | | | | Daxil olduğu təşkilatların sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | MDB Müstəqil Dövlətlər Birliyi | KTMT Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı | ŞƏT Şanxay Əməkdaşlıq Təşkilatı | AİQ Avrasiya İqtisadi Qrupu | GUAM – | AİB Avrasiya İqtisadi Birliyi | |
| | | | 9 | 6 | 6 | 6 | 4 | 5 | |
| 1 | Monqolustan | 12.0 | | | | | | | 0 |
| 2 | Qazaxıstan | 212.2 | ○ | ○ | ○ | ○ | | ○ | 5 |
| 3 | Qırğızıstan | 7.4 | ○ | ○ | ○ | ○ | | ○ | 5 |
| 4 | Özbəkistan | 62.6 | ○ | | ○ | ○ | | | 3 |
| 5 | Tacikistan | 9.2 | ○ | ○ | ○ | ○ | | | 4 |
| 6 | Türkmənistan | 47.9 | | | | | | | 0 |
| 7 | Gürcüstan | 16.5 | | | | | ○ | | 1 |
| 8 | Ermənistan | 10.9 | ○ | ○ | | | | ○ | 3 |
| 9 | Azərbaycan | 75.2 | ○ | | | | ○ | | 2 |

＊Yalnız rəsmi üzvlər qeyd olunub（Müşahidəçilər daxil deyildir）
＊Cədvəl, müxtəlif sənədlər əsasında HIT tərəfindən yaradılıb（Sentyabr 2015）

(3) Azərbaycana Yaponiya yardımı fonunda baxılması

Hokkaydonun sahib olduğu texnologiya və bilikləri Azərbaycan tərəfinə izah edib, özəl sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün Yaponiya hökümətinin dəstək prisiplərini düşünməyə ehtiyac duyulur. Yerli ehtiyaclar haqqında bu araşdırmada dəqiqləşdirib, Azərbaycan höküməti və Yaponiyanın Xarici İşlər Nazirliyi həmçinin JICA-nın dəstək prinsipləri fonunda araşdırma aparıldı.

(4) Hokkaydo texnologiyası və bilikləri

Yuxarıda (3)-də qeyd edildiyi kimi Yaponiyanın dəstək prinsipləri nəzərə alınmaqla, Azərbaycanın coğrafi özünəməxsusluğuna və iqlimə uyğun olan Hokkaydo biliklərini fərz etdikdə aşağıdakı 3-2 cədvəlində yazılanlar düşünülə bilər. Bu texnologiyalar Hokkaydodan Rusiya, Çinin şimal-şərqi, Şərqi Asiya ölkələri və s-ə texnologiya əməkdaşlığı həyata keçirmiş təcrübələrin mövzusuna çevrilmişdir. Hazırki mərhələdə olan məlumatlar fonunda, bu araşdırmada Azərbaycana uyğun yeni mənbələr və texnologiyaların tapılmasına çalışdıq.

Cədvəl 3-2. Azərbaycana uyğun olduğu düşünülən Hokkaydo texnologiyaları

| Kateqoriya | Xüsusiyyətlər | Hokkaydo resursları | Qısa təsvir |
|---|---|---|---|
| Kənd Təsərrüfatı və Heyvandarlıq | • Hokkaydo - Yaponiyada becərilən kənd təsərrüfatı torpaqlarının ümumi sahəsinin 1/4-i təşkil edən ölkənin ən böyük kənd təsərrüfatı və heyvandarlıq rayonudur.<br>• Hokkaydo əkinçilik əraziləri 1,15 milyon hektarlıq ərazini əhatə edir. Soyuq iqlimi ilə xarakterizə edilən Hokkaydo, Yaponiyanın qida bazası rolunu yerinə yetirir.<br>• Hokkaydonun iqlim və ekoloji şəraiti regiondan asılı olaraq fərqlənir və bunun sayəsində burada ən müxtəlif kənd təsərrüfatı və heyvandarlıq məhsulları istehsal edir.<br>• Yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları və heyvandarlıq məhsullarının istehsalı müəyyən bir region üçün ən uyğun kənd təsərrüfatı bitkiləri ilə əlaqədar araşdırmaların aparılması və becərilməsi texnologiyaları ilə, südlük heyvan cinslərinin yetişdirilməsi və süd heyvandarlığı texnologiyalarının inkişafı, qida təhlükəsizliyi və biotexnologiyalar ilə bağlı sınaq və tədqiqatların aparılması ilə şərtləndirilir. | Üzvi gübrə (peyin) istifadə yolu ilə təbii dövran növü kənd və mal təsərrüfatı | • Kənd təsərrüfatında kompostun istifadəsi və müvafiq kompostlama mexanizmlərinin yaradılması texnologiyaları. |
| | | Tərəvəzçilik üsulu ilə bərpa olunan enerji (geotermal enerji) istifadəsilə mühafizə olunan torpaqda tərəvəz yetişdirmə texnologiyaları | • Daha uzun vaxt sərf edərək kerosin ilə ənənəvi qazanları istifadə etmədən, geotermal enerji ilə istilənən seralarda tərəvəz becərilməsi imkanlarının təmin edilməsi. |
| | | Təmiz kənd təsərrüfatı | • Təmiz, təhlükəsiz və dadlı kənd təsərrüfatı məhsulları istehsal etmək üçün, əlverişli torpaq və təbii şərtlərindən istifadə edərək, Hokkaydoda sağlam torpaq becərmək üzrə onun gübrələnməsi üçün kompost və digər üzvi gübrələr istifadə etməyə səy göstərilir.<br>• Kimyəvi (mineral) gübrə və zəhərli kimyəvi maddələrinin istifadəsinin azaldılmasına yönəldilmiş təşəbbüslərin təşviqi. |
| | | Kənd təsərrüfatı istehsalının müasir idarəetməsi | • ABŞ və Avropa ölkələrindən südçülük təsərrüfatı texnologiyaların tətbiqi ilə Hokkaido Yaponiyanın südçülük təsərrüfatının güclü bir dəstəyinə çevrilmişdir.<br>• Hokkaydoda südçülük təsərrüfatının aparılması, texniki və texnoloji bazasının davamlı təkmilləşdirilməsilə həyata keçirilir. |
| | | Kənd təsərrüfatı və heyvandarlıq texnikası | • Hokkaydo – Yaponiyanın əkinçilik və heyvandarlıq texnikasının istehsalı, bölüşdürülməsi, istifadəsi, istismarı, inkişafı və dağıtım bazasıdır.<br>• İnformasiya və kommunikasiya texnologiya larından və GPS texnologiyalarından istifadə əsasında əlavə dəyərin artmasını və tam təhlükəsizliyi təmin edən «Made in Japan» kənd təsərrüfatı və heyvandarlıq texnologiyalarının inkişafı.<br>• Xaricə kənd təsərrüfatı texnikasının ixracının zəngin təcrübəsi (Orta Asiya, Rusiya və digər ölkələr). |
| | | Məsafədən zondlama | • Hokkaydo, məsafədən zondlama peyk texnologiyalarını çox erkən tətbiq etmişdir, onun istifadəsi ilə kənd təsərrüfatı məhsullarının yetkinlik dərəcəsini qiymətləndirməyə, gübrəyə nəzarətetmə və s. imkan yaradır. |
| | | Əkinçilik ərazilərinin suvarma sistemlərinin təchiz edilməsi | • Kənd təsərrüfatı ehtiyacları üçün su tanklarında toplanan su ilə əkinçilik ərazilərini optimal zamanda və optimal miqdarda (arazöz və dolamalı barabanlar ilə təchiz edilmiş) suvarma sistemlərinin yaradılması.<br>• Kənd təsərrüfatı məhsuldarlığının artması və keyfiyyətli məhsul istehsalı perspektivləri |

| Kateqoriya | Xüsusiyyətlər | Hokkaydo resursları | Qısa təsvir |
|---|---|---|---|
| Qida Sənayesi | • Hokkaydo - dəniz və torpaq, təzə və zəngin resursları əsasında istehsal olunan təhlükəsiz və cəlbedici qida “xəzinəsidir”.<br>• Hokkaydonun ərzaq və qidalanma sahəsində imtiyazlı mövqeyindən istifadə edərək, bölgədə yerli brendlərin yaradılmasına yönəlmiş bir sıra təşəbbüslər həyata keçirilir.<br>• Hokkaydoda istehsal olunan məhsulların satış yollarının genişləndirilməsi məqsədilə iqtisadiyyatın ilkin sektorunun səviyyəsinin yüksəldilməsi, yeyinti sənayesi məhsullarının əlavə dəyərinin artırılması ilə, burada kompleksli yeyinti sənayesi yaratmağa çalışırlar.<br>• Müəssisələr arasında qida klasterlərinin yaradılması vasitəsilə kənd təsərrüfatı məhsullarının emalı, paylanması və satışı sahəsində əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsinin təbliği. | Təzə tərəvəzlərin dondurulmuş formada saxlanma texnologiyası | • Ani dondurma texnologiyalarının inkişafı, buna müvafiq olaraq təzə tərəvəz dilimlənir, şəkər həlli tökülür və artıq rütubəti çıxarılır.<br>• Ani dondurulma texnologiyalarının yaradılması ilə zəngin bir məhsul toplandığında, məhsul arasındakı dövrdə onun kəsirini kompensasiya etmək üçün məhsul ehtiyatlarının formalaşdırılması mümkün oldu. |
| | | Ət işlənmə/emal texnologiyaları | • Daha əvvəllər tullanılan sərt toxumalı ətləri yumşaq etmək üçün fermentlərlə emal texnologiyalarının inkişafı. |
| | | Süd məhsullarının emalı | • Hokkaydo "Süd təsərrüfat səltənətində" istehsal olunan südün işlənməsi əsnasında məhsulların geniş çeşidlərinin istehsalı həyata keçirilir, yağ, pendir, qənnadı məmulatları və s daxil olmaqla. |
| | | Funksional ərzaq məhsulları | • Hokkaydoda istehsal olunan qida məhsullarının tərkibində olan funksional komponentlər ilə funksional ərzaq məhsullarının Hokkaydoda emalı və istehsalı üçün imkanlar var. Belə məhsulların əlavə dəyəri yüksəkdir, çünki sağlamlığı yaxşılaşdırır və xəstəliklərin qarşısını alır.<br>• Hokkaydoda funksional ərzaq məhsulları üçün öz sertifikasiya sistemi var, belə məhsulların Yaponiya və xarici bazarlarında satışlarının artırılması məqsədilə təşəbbüslər həyata keçirilir. |
| | | Brendləşdirmə | • Malların əlavə dəyərin artırılmasına və satış yollarının genişləndirilməsinə və regionun məşhurluğunun artmasına səbəb olan kənd təsərrüfatı və balıqçılıq məhsullarının geniş çeşidləri və müəyyən bir bölgənin xüsusiyyətləri əsasında malların inkişafı. |
| | | Qida zəhərlənmələrinə səbəb ola bilən bakteriyaların aşkar edilməsi üçün sadə üsulların inkişafı | • Stafilokok aureusun qidalarda hətta təcrübəsiz işçilər tərəfindən istifadə edilə bilən sadə aşkar etmə sisteminin inkişafı. |
| Turizm | • Hokkaydonun böyük bir sahəyə malikdir, iqlimi, relyefi, landşaftı və s ilə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən regionları vardır. Buna görə turizm baxımından Hokkaydo - adi şəhər turizmindən açıq təbiətdə istirahətə qədər turizmin müxtəlif növlərindən il boyunca zövq ala biləcəyiniz bir məkandır.<br>• Müxtəlif yerli turizm ehtiyatlarının istifadəsi və yüksək səviyyədə xidmət göstərilməsilə Hokkaydonun cəlbedici turizm məkanı kimi formalaşması sayəsində burada "uzun müddətli" tipli turizm inkişaf edir.<br>• Xüsusilə, Hokkaydo qışda xizək kurortu kimi çox populyardır – yerli və xarici turistlərin sayı olduqca | Eko-turizm, yaşıl turizm | • Hokkaydo sakinləri təbii ətraf mühiti, mədəniyyəti və s daxil olmaqla, adaya xas olan cəlbediciliyi turistlərə çatdırmağa çalışırlar. Onların bu istiqamətdə birgə səyləri, ətraf mühitin qorunmasına gətirib çıxaran təbiət və mədəniyyətin əhəmiyyətinin və dəyərinin daha dərin anlayışına kömək edir.<br>• Turistlərin kənd təsərrüfatı, meşə təsərrüfatı və ya balıqçılıqla məşğul olduqları kənd ərazisinin təbiətinin, mədəniyyətinin və xalqının təsirini hiss etmək üçün imkan yaradan "Uzun müddətli" turizmin təşviqi<br>• Hokkaydo, belə turizmin infrastrukturu baxımından Yaponiyanın lideridir, fermerlər tərəfindən idarə olunan özəl otellər, fermer təsərrüfatları yanında restoranlar və s daxil olmaqla. |
| | | Geniş landşaftların yaradılması | • Hokkaydo daxilində böyük gül bağlarının əkilməsilə gül heyranlığı ilə bağlı turizmin dəstəklənməsi. |

| Kateqoriya | Xüsusiyyətlər | Hokkaydo resursları | Qısa təsvir |
|---|---|---|---|
| | çoxdur. | | • Böyük şəhərləri birləşdirən mənzərəli yolların tikilməsini daxil etməklə landşaftların yaradılması vasitəsilə Hokkaydonun turizm cəlbediciliyinin dəstəklənməsi. |
| Alçaq əhali sıxlığı | • 2010 ildə əhalinin siyahıya alınmasına əsasən, Hokkaydo əhalisi 5.506.419 nəfərdir. (Yaponiyanın ümumi əhalinin 4,3%).<br>• Əhalinin sıxlığı hər km² 70 nəfərdir, bu ölkə daxilində əhali sıxlığının 1/5 təşkil edir (hər km² 343 nəfər) və prefekturalara görə ən aşağı əhali sıxlığı göstəricisidir. Əhalinin sıxlığı cəmiyyətin ərazidə paylanması növüdür.<br>• Bir-birindən uzaq məsafədə yerləşən yaşayış məntəqələri olan aşağı əhali sıxlığı ilə müvafiq rayonlarda tibbi xidmət sistemini təmin etmək lazımdır. | Məsafədən tibbi xidmət | •. Hokkaydoda internet və digər rabitə texnologiyaları və kommunikasiyaları istifadəsilə həkim və xəstə arasında birbaşa təmas olmadan tibbi xidmət təmin etmək üçün imkan verən məsafədən tibbi xidmət tətbiq olunur.<br>• Gözlənilir ki, məsafədən tibbi xidmət regionda həkim çatışmazlığı probleminin həll edilməsində kömək edəcək. |
| | | Təcili tibbi xidmətlərin göstərilməsində operativ və sabit nəqliyyatın təminatı | • Digər bölgələrdən əhəmiyyətli dərəcədə fərqlənən şəraitdə olan (böyük şəhərlərə toplanma səbəbilə həkim çatışmamazzlığı, nəqliyyat şəbəkəsinin aşağı sıxlıqlı olması, qış mövsümündə nəqliyyat şəraitinin pisləşməsi və s) ucqar ərazilərdə sağlamlıq xidmətlərini təmin etmək məqsədi ilə, yolların aktiv tikintisi, təcili yardım helikopterlərin istifadəsi ilə xəstələrin təcili daşınması sisteminin formalaşdırılması kimi tədbirlər görülür. |
| Digər | • Hokkaydoda bir fermer (kənd təsərrüfatında, meşə təsərrüfatı və balıqçılıqda) becərilməsindən (istehsalından) başlayaraq, emalı, paylanması, satışı, xidmət verilməsinə qədər və s bütün prosesi özü həyata keçirdiyi “Altıncı sənaye sektoru” daxilində geniş olaraq təşəbbüslər həyata keçirilir. Məşğulluq imkanlarını və fermerlərin gəlirlərinin artırılması sayəsində bu regionda ümumiyyətlə həyat və iqtisadiyyatın aktivləşməsinə gətirib çıxarır.<br>• Enerji qənaəti texnologiyaları və zəngin təbii mühit əsasında əldə edilən alternativ enerji sayəsində, Hokkaydoda müxtəlif bərpa olunan enerji mənbələrinin inkişafı və istifadəsi inkişaf edir. | Altıncı sənayə sektoru | • Fermerlər tərəfindən öz məhsullarının birbaşa satılması, fermer təsərrüfatları yanında restoranların mövcud olmasını, fermer təsərrüfatları daxilində müxtəlif müəssisələrin yaradılmasını, istehsal və emal məhsullarının yeni növlərinin inkişafı ilə yeni brendlərin yaradılmasını təmin edən “Altıncı sənaye sektoru” daxilində təşəbbüslərin həyata keçirilməsi baxımından Hokkaydo Yaponiyanın ən inkişaf etmiş regionudur. |
| | | Biokütlə enerjisi | • Mədən yanacaqlarının istifadəsini azaltmaq məqsədilə, Hokkaydoda enerji bitkilərinin becərilməsi yaxud fermer təsərrüfatı qalıqlarının (tullantılarının) və ya ağac tullantılarının istifadə texnologiyalarının inkişafı ilə bərpa olunan enerjidən istifadə vasitəsilə regionların iş formatı inkişaf etdirilir.<br>• Kənd təsərrüfatı məhsullarının soyuqda saxlanılması üçün, binaların sərinləndirilməsi üçün və s, soyuducu bir qaynaq olaraq istifadə etmək məqsədilə qış mövsümündə düşən qarlar, soyuq hava təsiri altında əmələ gələn buzlar yaya qədər saxlanılır.<br>• Ağac işlənməsindən sonra qalan yonqarlar və qırıntılar biokütlə (ağac qranulları) ilə işlədilən qazanlar üçün yanacaq kimi istifadə edilir. Tullantısız istehsal və meşə ehtiyatlarının səmərəli istifadəsi yaşıllığın qorunmasına xidmət edir. |

(5) Keçmiş uğursuzluqlar fonunda özəl sahədə əməkdaşlığın inkişafının öyrənilməsi

Bu araşdırmada məqsəd, Azərbaycanın inkişaf məsələlərinə uyğun olduğu düşünülən texnika və biliklərə sahib Hokkaydo şirkətlərinin, Azərbaycanın inkişafı üçün vacib olan problemlərin həllində töhvə verəcək özəl sahənin inkişaf etdirilməsidir. Lakin, Hokkaydo müəssisələrin iştirakı ilə uğursuz təcrübələri nəzərə alaraq, aşağıdakı xüsuslara diqqət yetirmək lazımdır.

① Təkliflərin birtərəfli tətbiqinin qarşısını almaq üçün, Azərbaycanın ehtiyaclarını tam olaraq hesaba almaq lazımdır.

Çox vaxt bəzi öz texnologiyalarına çox güvənən şirkətlər, başqa bir ölkənin bazarına girərkən, bu bazarda mövcud ehtiyacları əvvəlcədən araşdırmadan hərəkətə keçirlər. Təklif edilən məhsul (texnologiya) tələb, qiymət səviyyəsi, texnologiya inkişaf səviyyəsi və s baxımından bu bazara uyğun olmur, nəticədə şirkət davam gətirə bilməmə səbəbilə layihəni bağlamaq məcburiyyətində qalır.

② Yaponiya və Azərbaycanın mühitləri arasında olan fərqlərin öyrənilməsi

Yaponiya ilə müqayisədə Azərbaycan neft və digər resurslarla zəngin olduğuna görə yanacağın qiyməti ucuz ola biləcəyindən, Azərbaycan şirkətləri üçün Yaponiya texnologiyasının tədbiqi ilə qiymətlərin aşağı salınması və istehsal effektivliyinin artırılması kimi geniş mənada idarəetmə sahəsində nəticə olmazsa tədbiq edilməz (Məsələn, Azərbaycan şirkəti istilik enerjisini ucuzlaşdıracaq texnikanı alsa belə, əvvəldən elektrik enerjisi qiymətləri ucuz olduğuna görə texnika üçün ilkin investisiya və xidmət xərclərinin baha başa gələcəyi düşünülə bilər).

③ Sabit (davamlı) biznes yaratmaq üçün lazım olan müxtəlif şərtlərin qiymətləndirilməsi

Bu halda, belə nümunələrdən bəhs edilir ki, malların və ehtiyat hissələrinin daşınma üsulları, nəqliyyat xərcləri, Azərbaycanın texniki standartları və qaydaları, baxım və texniki xidmət sistemi, eləcə də, həmin sistemlər üçün kadrların təlimi kimi və nəticədə sabit tədarük sisteminin yaradılmasının qeyri-mümkün olmasına gətirib çıxaran bütün amillər nəzərə alınmamışdır.

④ Ölkə daxilində layihənin həyata keçirilməsinin etibarlı sisteminin formalaşması və uzunmüddətli planın mövcudluğu.

Hokkaydoda müəssisələrin əksəriyyətini kiçik və orta müəssisələr təşkil etdiyindən, layihənin həyata keçirilməsi ərzində qəfil layihənin həyata keçirilməsi üçün maneə ola biləcək maddi və ya insan resurslarının qıtlığının meydana gəlməsi riski olduğuna görə, kifayət qədər həyata keçirə biləcək sistemi hazırlayıb, uzunmüddətli plana sahib olmaq çox vacibdir. (Məsələn, əvvəllər Yaponiya daxili bazarında tikinti bazarının kiçilməsi ilə xaricə çıxışı hesablamış şirkətlər, hazırda ictimai işlərinin artması ilə ölkə daxili bazar nizama salınmışdır. Buna görə də xaricdə nəzərdə tutulmuş işlərin həcmi azaldılmış və ya tamamilə ləğv edilmişdir).

# 4 Araşdırmanın həyata keçirilmə metodları

Bu araşdırmada, aşağıdakı sxemdə göstərildiyi kimi, Azərbaycanda mövcud olan ehtiyaclar və tələblər əsasında, Hokkaydodakı mövcud resurslardan istifadə imkanlarının araşdırılması və hər iki tərəf üçün faydalı olacaq layihələrin həyata keçirilməsi üçün təkliflər hazırlandı.




Rəsim 4-1 Tədqiqat aparılmasının Blok-sxemi

※1 Cədvəl 4-1 Yerində həyata keçirilmiş araşdırmanın 1-ci məğzi

| | |
|---|---|
| Müddət | 10-14 dekabr 2015-ci il |
| Ərazi | Azərbaycan, Bakı şəhəri |
| Araşdırmanın tərkibi | İlkin hesabatın izah iclası, yerli məlumatların toplanması |
| Səyahət edilən yerlər | Dövlət orqanları, yerli müəssisələr və şirkətlər |

※2 Cədvəl 4-2 Yerində həyata keçirilmiş araşdırmanın 2-ci məğzi

| | |
|---|---|
| Müddət | 28 Yanvar – 6 Fevral 2016-cı il |
| Ərazi | Azərbaycan, Bakı şəhəri, Şəki rayonu və ətraf rayonlar |
| Araşdırmanın tərkibi | İşlənilə biləcək sahənin dəqiqləşdirilməsi, Yaponiya müəssisəsi və dövlət orqanlarının əlavə araşdırmaları |
| Səyahət edilən yerlər | Dövlət orqanları, yerli şirkət və müəssisələr, yerli qurumlar, QHT, təsərrüfatçılar |

# 5　Araşdırmanın nəticələri

(1) Azərbaycanın özünəməxsusluğu

① Coğrafi özünəməxsusluğu

Hokkaydodan təxminən 1.1 dəfə böyük əraziyə malik olan Azərbaycan, Xəzər dənizi regionu, Böyük Cənubi Qafqaz dağları, Mərkəzi Aran hissədən ibarət olmaqla 3 hissəyə bölünür. Belə qəribə coğrafi şəraiti ilə dünyada olan 12 iqlimdən 9-u bu ölkə ərazisində yerləşir. Azərbaycan Xəzər dənizinin qərb hissəsində yerləşir, dağlıq sahələri çox, oralarda axan çaylar dənizə tökülür. Yalnız Qafqaz ölkələri (Gürcüstan və Ermənistan) ilə deyil, şimalda Rusiya, cənubda İranla sərhəd olduğundan Xəzər dənizi ticarət limanı vasitəsilə bu ölkələrə birləşdirəcək logistik potensiala malikdir. Cənub-qərbində Ermənistanla sərhəd olan Azərbaycan torpağı Naxçıvan Muxtar Respublikası vardır.




Rəsim 5-1　Azərbaycanın coğrafi mövqeyi. Mənbə: Yaponiya XİN

② İqlim özünəməxsusluğu

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan landşaft müxtəlifliyinə görə aşağıdakı şəkildə olduğu kimi müxtəlif iqlimlərə sahibdir. Amma Hokkaydonun sahib olduğu subarktik zona Azərbaycanda yoxdur, ölkənin dağlıq hissələri belə temperatur, yağış və qar yağımının miqdarına baxdıqda, iqlim baxımından Hokkaydo ilə Azərbaycan arasında oxşarlıqlar azdır. Buna baxmayaraq, quru nəqliyyatını düşündüyümüzdə, dağlıq regionların nəqliyyatının idarətməsi vacib olduğundan, dağlıq ərazilərdə aşağı temperaturlu şəraitlərdə yollara nəzarət, yanğından mühafizə sahələrində Hokkaydonun texnologiyasından istifadə etmək mümkündür.




http://www.grida.no/graphicslib/detail/climate-zones-of-the-caucasus-ecoregion_851d#

Rəsim 5-2 Azərbaycanın iqlim xəritəsi

③ Ərazi bölgüsü

Hokkaydodan 1.1 dəfə böyük əraziyə sahib Azərbaycanda 59 rayon, 11 şəhər, 1 Muxtar Respublika mövcuddur. Azərbaycanın ümumi əhalisi 9 milyon 500 min nəfərdir. Bunlardan 2 milyon 150 min nəfəri paytaxt Bakıda yaşayır. Bakı ona yaxın rayonlarla birlikdə ümumi əhalisi təxminən 4 milyondur[1].

[1] Doing business in Azerbaijan 2015 (Azpromo)

Hokkaydoda isə 178 şəhər, qəsəbə və rayon vardır. Ümumi əhalisi 5 milyon 400 mindir ki, bunun 1 milyon 910 mini Sapporo şəhərində yaşayır. Şəhərlərə əhalinin cəmləşməsi baxımından Hokkaydo və Azərbaycan ümumi problemə malikdir.




Rəsim 5-3 Azərbaycanın rayon və şəhərlərə bölünmə xəritəsi

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Seçki Komitəsi

(2) Azərbaycanın qısa icmalı

① ÜDM

2010-cu ildən bu yana göz gəzdirdikdə görürük ki, Azərbaycanda ÜDM 2010-cu ildə 52.9 mlrd, 2014-cü ildə isə 75.2 mlrd Amerika dolları olmuşdur. Son illərin ÜDM-nın inkişaf səviyyəsinə baxdıqda illər üzrə təxminən 3% artır. 2015-ci ilin son məlumatlarına baxdıqda görürük ki, 63.8 mlrd olmuşdur ÜDM. 2014-cü illə müqayisədə 15%-dən çox azaldığı müşahidə edilir[2]. Bunun başlıca səbəbi kimi Azərbaycanın əsas ixrac məhsulu olan xam neftin qiymətinin dünya bazarında aşağı düşməsi göstərilir.

---

[2] World Bank, 2016

10 milyard $




Rəsim 5-4　Son illərin ÜDM inkişaf sürəti mlrd dollarla

② Sənayə özünəməxsusluğu

Azərbaycanda ÜDM müqayisəli şəkildə, 1-ci sənayedə 6.0%, 2-ci sənayedə 58.0%, 3-cü sənayedə 36.1% olmaqla, 1-ci sənayenin payı aşağıdır. 2-ci sənayenin payının çox olması onun özünəməxsusluğunu göstərir[3]. Xüsusilə, 2-ci sənayedə, neft emalı, ağır kimya, tekstil, qida sənayesi inkişaf edir.

Paytaxt Bakı ətrafı Xəzər dənizi hövzəsi dünya səviyyəli neft mədəni zonasıdır. Buradan külli miqdarda neft və təbii qaz çıxarılır. Qərb ölkələri və Amerikanın investisiyaları sayəsində avadanlıqların müasirləşməsi və boru kəmərlərinin tikilməsi ilə neft istehsalı kifayət qədər çoxalaraq Azərbaycanın iqtisadi inkişafına böyük töhvələr verdi. Xam neftlə bağlı 2006-cı ildə açılmış Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri vacib daşınma vasitəsinə çevrilmişdir. Bu boru kəməri Bakıdan başlamaqla Gürcüstan vasitəsilə Türkiyə Cümhuriyyətinin Ceyhan şəhərinə kimi 1768 km məsafə qət edir və gündəlik 120 min barel daşıma gücünə malikdir. BTC boru kəməri ilə bərabər tikilən SCP (Cənubi Qafqaz boru kəməri) (digər adı BTƏ(Bakı-Tbilisi-Ərzurum)) boru kəməri 692 km uzunluğa malikdir. İllik daşıma gücü 25 mlrd $m^3$-dir. Bu boru kəməri vasitəsilə təbii qaz Türkiyəyə nəql edilir. Üstəlik, 2015-ci ildə SCP ilə Azərbaycan təbii qazını Avropa İttifaqına nəql edəcək Trans Anadolu qaz boru kəmərinin (TANAP) tikintisinə də start verilmişdir.

[3] CIA world FACTBOOK




Rəsim 5-5   BTC və SCP(BTE) boru kəmərləri

British Petroleum sənədlərindən




Rəsim 5-6   Bakıdan Avropa Birliyinə istiqamətlənmiş Trans Anadolu qaz boru kəmərinin (TANAP) xəritəsi

(WWW.TANAP.com)

Həmçinin, Azərbaycan hökuməti, ölkənin əsas sənayesi olan neft sənayesinin uğurlu idarəetməsini həyata keçirtmək üçün, Azərbaycan Respublikası Dövlət Neft Şirkətini (SOCAR) təsis etmişdir. Hökumətlə razılaşdırılmış istehsal planına uyğun olaraq, qarışıq neft enerjisi inkişafını irəlilədib, neft, təbii qaz, neft istehsal edən yerlər, boru kəmərləri və s ölkə siyasətinin bazası kimi idarə olunur.

Neft və təbii qazı əsas götürməklə resursların istismarı layihələri ilə iqtisadi inkişaf etmiş Azərbaycanda son illər, xam neft qiymətlərinin ucuzlaşması ilə bütün ölkə iqtisadiyyatı mənfi təsir altına düşmüşdür. 2015-ci ilin dekabr ayının 21-də Azərbaycanın milli əskinazı olan manat 47.6 % qiymətdən düşmüş,

Mərkəzi Bankın 2016-cı il Yanvar ayının sonuna xarici valyuta ehtiyatı 618 milyon dollar azalmış, ötən ilin eyni dövrü ilə müqayisədə 8 milyard 300 milyon dollar azalmaqla 4 milyard 300 milyon olmuşdur. Bunun təsiri nəticəsində, Azərbaycanda neft istismarı, elektrik enerjisi və dəmir yol və s dövlət və ictimai müəssisələrin dövlət istiqrazları və kredit reytinqi aşağı salınmışdır. Üstəlik, hökümətin vergilərin azaldığı zamanda, xam neft 1 bareli 50 dollardan hesablanmış 2016-cı il dövlət büdcəsinə yenidən baxılmış və 1 barel 25 dollardan hesablanması üzrə yeni büdcə planı ölkə prezidentinə təqdim edilmişdir.

Belə şərtlər altında, Azərbaycan hököməti sənayenin müxtəlifləşməsi üçün kənd təsərrüfatı sektorunun inkişafına can atır. Kənd Təsərrüfatında çalışanlar ölkənin əmək qabiliyyətli əhalisinin 40%-ni təşkil etsə də, Kənd Təsərrüfatının ÜDM-da payı cəmi 5-8% olmaqla olduqca aşağı göstəriciyə malikdir. Digər tərəfdən suvarma üsulları inkişaf etmiş, buğda, pampıq, meyvəçilik və çayçılıq inkişaf etmişdir. Dağlıq ərazilərdə heyvandarlıq inkişaf etmişdir. Ölkə ərazisi Hokkaydo ilə demək olar ki, eyni olmasına rəğmən, Azərbaycanda 9 iqlim qurşağı vardır. Temperaturun yüksək olduğu ərazilərdən aşağı olduğu ərazilərə qədər müxtəlif növ bitkilər yetişdirilir. Həmçinin, hal-hazırda İnkişaf Etmiş Ölkələrin kənd təsərrüfatı texnologiyalarından fəal şəkildə istifadə etməklə istehsal effektivliyinin artırılmasına çalışılır. Cənubi Qafqaz regionu bir çox dərman bitkilərinin və şimal mühitinə məxsus meyvələrin vətəni kimi tanınır.

Gələcək iqtisadi strategiya üçün Azərbaycan hököməti, son illər enerji qiymətlərinin aşağı düşməsi ilə qeyri-enerji sektorunun inkişafını qarşısına məqsəd qoymuşdur. 2015-ci il dekabr ayının 31-də yeni il münasibətilə Prezident Əliyevin xalqa müraciətində, kənd təsərrüfatı, turizm və xidmət kimi qeyri-neft sektoru sahələrinin inkişafını başlıca məqsəd qoyduqları qeyd edilmişdir.

③ Ticarət

Son illər ticarət gəlirlərinə nəzər saldıqda, iqtisadi durumun olduqda yaxşı olduğunu (ixracat üstünlük təşkil edir) müşahidə edirik. İxracatda neft və neft məhsulları, təbii qaz, metallar (dəmir daxil metallar) kimya, avadanlıqlar, buğda, pambıq, kömür daha çoxdur. İxrac etdiyi ölkələrə əsas etibarilə, Çin, Rusiya, Almaniya, Fransa, İtaliya, Yunanıstan, Rumıniya daxildir. Digər tərəfdən əsas idxal məhsulları, avadanlıq qurğuları, metal məhsulları, ərzaqdır. İdxal ölkələrinə Rusiya, Çin, Almaniya və s aiddir.




Rəsim 5-7 Son illər üzrə ticarət gəlirinin inkişafı

(mlrd dollarla, göy rəng: ixracı, qırmızı rəng: idxalı, yaşıl rəng: ticarət gəlirlərini göstərir)

④ Xarici ölkələrdən birbaşa investisiyalar

1990-cı illərin ortalarından etibarən, Bakı ətrafı Xəzər dənizi hövzəsində neft mədənlərinin istismarına əsas etibarilə Qərb ölkələrindən birbaşa investisiyalar yatırılmağa başladı. 2007-ci ildən etibarən zəngin təbii qaz yataqları da istehsal edilməyə başladı. Həmçinin qeyri-neft sektoruna olan investisiyalarda, dövlət orqanlarının sifariş verdikləri layihələr əsas olmaqla, tikinti əlaqəli işlər əsas olmaqla, mediaya da xarici özəl sektordan investisiyalar kifayət qədər yatırılmaqdadır. Ölkələr üzrə baxdıqda, Azərbaycana ən çox investisiya yatıran dövlətlər Türkiyə, İngiltərə və Amerikadır.

Son illər, Azərbaycana olan xarici investisiyalara nəzər saldıqda 2013-cü ildə əvvəlki illə müqayisədə iki dəfə aşağı düşdüyünü müşahidə edirik. Azərbaycana xarici birbaşa investisiyaların təxminən 80%-i xam neft və qaz kimi resurslarla bağlı sahələrə aiddir. 2013-cü ildə ona qədər artmaqda olan neft qiymətləri pik həddinə çatmış və qiymətlərin kəskin şəkildə düşəcəyi 2014-cü ildən öncəki il olduğuna görə xaricdən olan birbaşa investisiyalar artıq pik həddini keçmişdi deyə düşünülə bilər. 2013-cü ildə Qazaxıstan kimi digər resurslardan asılı ölkədə də eyni hal yaşanmışdır[4].




Rəsim 5-8 Son illər xaricdən olan birbaşa investisiyaların inkişafı (mlrd dollarla göstərilib)

Mənbə: Dünya Bankı

⑤ Əsas xarici investisiya siyasəti

Azərbaycan höküməti qeyri-neft sektoruna investisiyaların artımına çalışır. Buna uyğun olaraq, 2003-cü ildə İqtisadi İnkişaf Nazirliyinin nəzdində Azpromo (Azərbaycanda İxracın və İnvestisiyanın Təşviqi Fondu) təsis edilmişdir. Azpromo-nun vəzifələrinə qeyri-neft sektoruna xaricdən investisiyaların qoyulması işini sürətləndirmək, qeyri-neft sektorunun ixracını sürətləndirmək, Azərbaycanın iqtisadi inkişafına töhvə verməkdən ibarətdir. Ölkənin reklam edilməsi, beynəlxalq iclasların layihələndirilməsi, idarə olunması və biznesdə uyğunluqların tapılmasına çalışır.

Xarici investisiyalarla bağlı qanuna gəlincə, 1992-ci ildə yaradılmış və 2007-ci ildə dəyişiklik edilmiş Xarici İnvestisiyanın Qorunması hüququ mövcuddur. Bu qanuna görə, xarici kapitalistlərə, ölkə daxili kapitalistlərlə eyni bərabər hüquqlar verilir və vergi sahəsində üstünlüklərlə təmin olunurlar. Bu

[4] *ADB: Asian Development Outlook 2014(Azerbaijan)
http://www.adb.org/sites/default/files/publication/31241/ado2014-azerbaijan.pdf

üstünlüklərə, sənaye və texnologiyalar parkının salınması ilə, 7 illik gəlir vergisi, əlavə dəyər vergisi, əmlak vergisi və s-dən azad olmalar daxildir.

⑥ Yaponiya və Azərbaycan arasında iqtisadi əməkdaşlığın vəziyyəti

Yaponiyadan Azərbaycana ixracatın ümumi məbləği 12 mlrd 330 mln yapon yenidir. İxracat məhsulları əsas etibarilə maşın və nəqliyyat avandanlıqlar, bir çox hallarda dəmir və polad. Əksinə Azərbaycandan Yaponiyaya ixrac isə 130 milyon yapon yeni civarında ölçülür. Əsas etibarilə, neft və neft məhsullarından ibarətdir[5].

Xəzər dənizində ACG (Azəri-Çıraq-Günəşli) mədəninin istismarı üçün İtochu Shoji şirkəti 4.30% paya, İNPEX isə 10.96% paya malikdir. Çıxarılan xam neft BTC[6] (Bakı Tbilisi Ceyhan ) vasitəsilə Aralıq dənizinə, oradan da neft tankerləri ilə bir çox ölkələrə ixrac edilir. Eyni zamanda sözü gedən boru kəmərində İtochu Shoji 3.4%, İNPEX isə 2.5% paya malikdir.

Son vaxtlarda Azərbaycan hökuməti nəzarətində olan Azərbaycan Dövlət Neft Fondu (SOFAZ) Tokyonun mərkəzi Ginzada böyük ticarət mərkəzini (KİRARİTO GİNZA) daşınmaz əmlakı satın almışdır.

⑦ Yaponiyadan başqa digər ölkələrlə iqtisadi əməkdaşlığının vəziyyəti

Böyük neft resurslarına sahib olmayan Türkiyə üçün Azərbaycan enerji strategiyası baxımından çox vacib tərəfdaşdır. Həmçinin Türkiyə 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmaqla yanaşı, Azərbaycanın öncəki prezidenti “bir millət iki dövlət” ifadəsini işlədəcək qədər Türkiyə ilə münasibətlər yüksək səviyyədədir. Keçmiş Sovetlər birliyinə daxil olan Azərbaycanda Rusiya malları çox olsa da, son illər Türkiyə mallarının payı artmaqdadır.

---

5 Yaponiya Maliyyə Nazirliyinin araşdırması, 2014

6 Daşıma gücü günlük 1 milyon barel

Cədvəl 5-1 Azərbaycanın icmalı

| | | | | | |
|---|---|---|---|---|---|
| Ümumi vəziyyət | Ərazisi | Əhalisi ※1 | Paytaxt | Dövlət dili | |
| | 86.6 min km$^3$ | 9.5 mln (2014) | Bakı | Azərbaycan dili | |
| | Millət | Dil | Din | — | |
| | Azərbaycanlılar（90.6%） | Azərbaycan dili | İslam dini Şiə | | |
| | Coğrafi özünəməxsusluğu Xəzər dənizinin qərb sahilində yerləşir, şimal Rusiya, cənubda İranla sərhəddir. | | | | |
| İqtisadi göstəriciləri | ÜDM／adambaşına ※1 | İqtisadi İnkişaf sürəti ※2 | İdxalın ümumi məbləği ※1 | İxracın ümumi məbləği ※1 | |
| | 7,884 dollar (2014) | -13.7% (2015-fərz edilən rəqəm) | 19.7 mlrd dollar (2014) | 32.6 mlrd dollar (2014) | |
| | Milli əskinaz | Mübadilə dollar qarşı | — | — | |
| | Manat (AZN) | 1 dollar＝1.56（31 dekabr 2015） | | | |
| | ÜDM ※ 1 (mlrd amerika dolları) | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
| | | 52.9 | 66.0 | 68.7 | 73.6 | 75.2 |
| | Əsas ixrac məhsulu※3 | Xam neft və neft məhsulları | | | |
| | Əsas ixrac ölkələri※3 | İtaliya, İndoneziya, Tailand, Almaniya, İsrail | | | |
| | Əsas idxal məhsulları ※3 | Avadanlıqlar, maşınlar, ərzaq, nəqliyyat vasitələri, hər cür ehtiyat hissələri | | | |
| | Əsas idxal ölkələri※3 | Rusiya, Türkiyə, İngiltərə, Almaniya, Ukrayna | | | |
| Yaponiya ilə əlaqələr | Yaponiya ümumi ixrac məbləği※3 | Yaponiyaya ixrac olunan əsas məhsullar | Yaponiyadan ümumi idxal məbləği ※3 | Əsas idxal məhsulları | |
| | 130 milyon yapon yeni (2014) | Neft və neft məhsullar | 12.33 mlrd yapon yeni (2014) | Texniki avadanlıqlar həmçinin nəqliyyat daşıma vasitələri, dəmir və polad | |
| | Əsas müqavilə və razılaşmalar | 10 Mart 2006 – Yaponiya-Azərbaycan texniki əməkdaşlıq razılaşmasına imza | | | |
| | Yaponiya şirkətləri※4 | 9 yapon şirkəti (2014) | | | |
| İnvestisiya siyasəti | Prioritet investisiya sahələri | Neft, Kimya, Mineral resurslar, Kənd təsərrüfatı, Heyvandarlıq (Qoyun) | | | |
| | Əsas orqan | İqtisadi İnkişaf Nazirliyi | | | |
| | İnvestisiya üsulunun məğzi | Xarici vətəndaşlar tərəfindən alınmış daşınmaz əmlaka sahib olmama və s kimi qaydalar var | | | |
| | Xarici investisiyalar (vergi) | Sənayə sahələri, texnologiya parklarında güzəştli vergi sistemi vardır | | | |
| Əlavə | Əsas logistik yollar | Yaponiya→（Dəniz daşımaları…Aralıq dənizi・Egey dənizi・Qara dəniz）→Gürcüstan→（dəmir yolu ilə）→Azərbaycan | | | |

Mənbə:
※1 Dünya Bankı (2015)
※2 Beynəlxalq Maliyyə Fondu (Oktyabr 2015)
※3 Azərbaycan Dövlət Statistika Komitəsi (2013)
※4 Yaponiya Maliyyə Nazirliyi ticarət statistikası (2014)
※5 Yaponiya XİN "Xaricdə yaşayana yaponiyalıların sayı ilə bağlı araşdırma statistikası" (2015)

(3) Yaponiyanın dəstək siyasəti haqqında

Azərbaycan üçün Yaponiya höküməti və JICA-nın dəstək prinsipləri və başlıca siyasətləri aşağıdakı kimidir. Azərbaycanda neft və təbii qaz layihələrində Yaponiya müəssisələri iştirak edirlər. Yaponiyanın Neft Qaz Metal Milli Kooperasiyası (JOGMEC) Azərbaycanda neft istismarı işlərində vəzifələrin icrasına zəmanət və s dəstək işlərini həyata keçirtməklə, enerji sahəsində əməkdaşlıq yüksək səviyyədə olsa da, son illər xam neft qiymətinin kəskin aşağı düşməsi ilə ölkə iqtisadiyyatının zəifləməsi baş verdi. Bunun nəticəsi olaraq, Azərbaycan tərəfi kənd təsərrüfatı, turizm, kiçik və orta sahibkarlığın inkişafı, qeyri-neft sektorunda əməkdaşlığa böyük maraq göstərir.

Həmçinin, Azərbaycanın daxil olduğu GUAM ilə Yaponiya arasında 2007-ci ildə dialoq və əməkdaşlıq üçün “GUAM＋Yaponiya” birliyi yaradılmışdır. Əsas mövzu enerji sektoru, turizmin dirçəldilməsi, investisiyaya dəstək olmaqla, 2015-ci il İyul ayında 6-cı iclası keçirilmiş və suya nəzarət, enerji təhlükəsizliyi, turizm və beynəlxalq arenada əməkdaşlıqla bağlı müzakirələr aparılmışdır.

Cədvəl 5-2 Yaponiyanın yardım siyasəti

| | | |
|---|---|---|
| Xarici İşlər Nazirlikləri ölkələr üzrə | Ölkələr üzrə yardım siyasəti<br>Başlıca məqsəd<br>（çıxarış） | ・Kənd təsərrüfatı, turizm, nəqliyyat sahəsinin dirçəldilməsi siyasəti、<br>・Elektrik enerjisi, yolların infrastrukturunun inkişafı |
| | Ölkələr üzrə dəstək siyasəti<br>Orta məqsəd<br>（çıxarış） | ・İnfrastruktur layihələri (enerji sahəsi, nəqliyyat sektoru, su və kanalizasiya sahəsi)<br>・Sosial Xidmət (Sığorta, Səhiyyə, Təhsil, Ətraf-mühit siyasəti)<br>・Kadrların yetişdirilməsinə dəstək (özəl sahə) |
| JICA | Məqsəd və əsas tədbirlər | ・İqtisadi inkişafı qorumaq üçün mütləq olan iqtisadi və sosial infrastrukturun yenilənməsi həmçinin sənayenin inkişafını qorumaq üçün kadr yetişdirilməsi (Paytaxt Bakı ətrafında elektrostansiya tikintisi, regionlarda su və kanalizasiya sisteminə dəstək, ictimai xidmətin yaxşılaşdırılması ilə əlaqədar təcrübələr) |

(4) Hokkaydo şirkətlərinin beynəlxalq biznesə maraqları haqqında

Xaricə çıxmış Hokkaydo şirkətlərinin əsas istiqaməti (61%) Çin və Cənubi-Şərqi Asiya ölkələrinədir. Bu ölkələrə çıxışda əsas məqsəd, ucuz əmək və xammalı tələb edən istehsal bazasının mərkəzləşmiş və etibarlı (müddətli) istehsalıdır. Həmçinin, Yaponiya mətbəxinin məşhurluğunun yüksək olduğunu nəzərə alsaq, Hokkaydonun ən güclü tərəfi kimi “qida” ilə bağlı dükan və restoranların açılması, kənd təsərrüfatı və dəniz məhsullarının ixracatını misal gətirmək olar. Lakin, Yaponiya və digər dövlətlərin şirkətləri Çin və Cənubi-Şərqi Asiya ölkələrinin bazarlarına çıxışı hədəfləmişlər. Bu istiqamətdə rəqabət kəskinləşməkdədir.




Rəsim 5-9 Hokkaydo şirkətərinin xarici bazarlara çıxma bölgüsü

Mənbə: JETRO Hokkaydo “2014-cü il üzrə xarici biznesə çıxışların real vəziyyəti ilə bağlı araşdırma” (2015-ci il İyul ayı) əsasında hazırlanmışdır.

Buna görə də, Hokkaydo şirkətləri olaraq Hokkaydonun özünəməxsusluğundan (Cədvəl 5-3) yararlanmaqla yeni bazar axtarışlarına ehtiyac duyulur. Hokkaydoda indiyədək xoş münasibətlərin yaradılmasını qarşısına məqsəd qoyan regionların strategiyasını nəzərə almaqla, kənd təsərrüfatının özünəməxsusluğu iqlim baxımından oxşar olan Rusiyanın uzaq şərq regionlarında və şimal-şərqi Asiya ölkələri ilə kənd təsərrüfatı və heyvandarlıq sahəsinə infrastruktur layihələri və soyuq iqlimə malik ərazilərdə texniki əməkdaşlıq, özəl sahədə biznes nailiyyətləri mövcuddur. Belə uğurlu təcrübələrdən istifadə etməklə Hokkaydo şirkətlərinin bundan sonra eyni oxşarlıqlara malik Azərbaycana biznes çıxışları mümkün görülməkdədir.

Cədvəl 5-3 Hokkaydonun sənaye müxtəlifliyinin özünəməxsusluqları

| Kənd Təsərrüfatı sahəsi | Özünəməxsusluğu |
|---|---|
| Kənd Təsərrüfatı və Ərzaq | ・Kənd Təsərrüfatı sahəsinin sənaye sahələrində payı çox yüksəkdir. (bütün ölkə üzrə orta rəqəmdən 4 dəfə çox). Çox sahələrdə istehsal olunan məhsulların email ilə də məşğul olunur. |
| Tikinti və İnfrasturuktur | ・Tikinti və infrasturuktur sahəsinin sənayedə payı yüksəkdir. Hokkaydo üzrə 10.4%, ölkə üzrə 5.9% |
| Yaşam mühiti və enerji | ・İllik orta temperatur ölkə daxilində ən aşağıdır. Ailədə adambaşına istifadə edilən enerji istehlakına görəYaponiya üzrə 1-cidir. (24,500Coul/adam)<br>※GJ: Coul（fizikada enerjinin həcmi, istiliyin kəmiyyəti, görülən işin vahidi） |
| IT | ・Əhali sıxlığı ölkə daxilində ən aşağı göstəriciyə məxsusdur. (təxminən 70 nəfər/km$^2$). Xüsusilə qış mövsümündə uzaqda idarəetmə (fövqəladə hallar və tibb) çox vacibdir.<br>・Becəriləcək sahəsi genişdir. 23.4 ha/ev. Digər regionların göstəricisindən 14.6 dəfə böyükdür. Ona görə kənd təsərrüfatında İT-də istifadə edilməkdədir. |
| Funksional qida | ・”Sağlam etmək” (Hokkaydo qida funksionallığını göstərən sistem) Yaponiyada ilk dəfə olaraq məhz Hokkaydoda 2013-cüü il Aprel ayından etibarən başlanılmışdır. |
| Turizm | ・Burada qalan qonaqların sayı 24 milyon 180 min olmaqla Tokyonun ardınca ən böyük göstəricidir. Müxtəlif biznes sahələri inkişaf etməkdədir. |

(5) Yerlərdə araşdırmaların həyata keçirilməsi

① Yerli ehtiyaclar fonunda araşdırma mövzusunun öyrənilməsi

3-də (4) qeyd edilən Hokkaydonun texnologiyası və biliklərini nəzərə alaraq, bu hissədə (1), (2)-də toplanmış Azərbaycanın özünəməxsusluğu və vəziyyəti həmçinin (3) Yaponiyanın dəstək siyasəti, (4) Hokkaydo şirkətlərinin düşüncələri ilə bağlı araşdırmanın aparılması fonunda, yaşayış evləri və enerji sahəsində əməkdaşlığın mümkünlük səviyyəsi aşağıdır. Azərbaycanda olduğu kimi Hokkaydoda neft və təbii qaz sahəsində təcrübə yoxdur. Azərbaycan iqliminə uyğun yaşayış evlərinin tikintisi ilə bağlı Hokkaydonun üstünlüklərini təqdim etmək də bir qədər çətin məsələdir. Digər tərəfdən Azərbaycan höküməti inkişafını qarşısına məqsəd qoymaqla kənd təsərüfatı və turizm ilə əlaqədar Hokkaydo şirkətlərinin işlərinə ümid bəsləmək olar. Hokkaydoda kənd təsərrüfatında istehsalın yüksək olmasına hesablanmış, eyni zamanda yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının təminatı gerçəkləşdirilir. Üstəlik, kənd təsərrüfatı ilə əlaqəli olan qida emalı sənayesində də qidanın Hokkaydo adı altında brendləşdirilməsi vasitəsilə əlavə dəyərin qoyulması və beynəlxalq sağlamlığa marağın yüksəlməsi ilə bağlı təhlükəsiz ərzaq və funksional qidaların istehsalı davam etdirilir. Həmçinin, turizm sahəsi ilə bağlı olaraq, Hokkaydoda Asiyanı əsas götürməklə müxtəlif ölkələrdən olan turistlərin sayı sürətlə artmaqdadır və burada müxtəlif növ turizm ehtiyaclarına uyğun fəaliyyət göstərilməkdədir.

İlkin araşdırmalar zamanı, nazirliklər, əlaqədar qurumlar, şirkətlərdə dinləmələr aparılarkən, xüsusilə regionların kənd təsərrüfatı, ərzaq emalı, turizm sektorunu inkişaf etdirməklə, şəhərlərlə arada olan iqtisadi fərqi aradan qaldırmağın vacibliyi dəqiqləşdirildi. Hokkaydoda sadəcə Sapporoda deyil, region şəhərlərində kənd təsərrüfatı, ərzaq emalı, turizmin uğurlu nümunələrinə sahib şirkətlər, qurumlar olduğuna görə həmin təcrübə və texnologiyanı Azərbaycanda da tədbiq etməyin real olduğunu fərz edib, kənd təsərrüfatı, ərzaq emalı və turizmi mövzu seçməklə 2-ci yerli araşdırmaları həyata keçirtdik.

② Azərbaycanda inkişaf problemləri və ehtiyaclarının müəyyənləşdirilməsi

1) Kənd Təsərrüfatı və Qida emalı sahəsi

Prezident fərmanı Azərbaycanın dövlət strategiyası olan “Azərbaycan 2020 Gələcəyə baxış” layihəsində kənd təsərrüfatı sənayenin müxtəlifləşməsində əsas sahələrdən biri kimi qeyd edilmiş, regionlarda anbarların tikintisi, kənd təsərrüfatı məhsullarının qiymət dəyişikliyinə nəzarət, istehsal və qoruma mərhələsində itkilərin azaldılması, özünü təminatın yaxşılaşdırılması, ixracat qabiliyyətinin inkişaf etdirilməsini dövlət qarşısına məqsəd qoymuşdur. Üstəlik, Azərbaycan 2015-ci ili Kənd Təsərrüfatı ili elan etməklə, bu sahənin inkişaf etdirilməsi ilə regionların inkişafını qarşısına məqsəd qoydu. Bunun nəticəsində, 2016-cı ilin Yanvar ayı üçün hökümət iclasında verilən məlumata görə, 2015-ci ilin sosial-iqtisadi vəziyyətində kənd təsərrüfatının ÜDM-da payı ötən illə müqayisədə 6.6% artmışdır. Amma özünü tam

təminata hesablanmış kartofda 100% deyil, 90% təmin edə bilmiş, bundan sonra qida təhlükəsizliyi üçün kənd təsərrüfatının dirçəldilməsinin vacib olduğu Azərbaycan hökümətinin rəsmi elektron ünvanında[7] qeyd edilmişdir.

Həmçinin hökümət kənd təsərrüfatı məhsullarının ixracını qarşısına məqsəd qoymuşdur. Rusiya siyasi problemlər üzündən Qərb ölkələri və Ukraynadan kənd təsərrüfatı məhsulları almaqda çətinliklərlə üzləşir. Bu baxımdan, Azərbaycandan Moskva və digər iri şəhərlərə meyvə və tərəvəz ixracatının mümkünlüyü günü-gündən artmaqdadır. Eyni zamanda Qazaxıstan da Rusiya vasitəsilə kənd təsərrüfatı məhsullarının çatdırılmasında çətinliklərlə üzləşir. Bu baxımdan Azərbaycandan idxal məsələləri düşünülməkdədir. Üstəlik, Azərbaycan üçün sadəcə keçmiş Sovet ölkələri deyil, eyni zamanda, Türkiyə, Orta-Şərq, Çin də əsas bazarlar kimi qeyd edilir, logistik mühitin inkişafı davam etdirilir.

Lakin, digər Mərkəzi Asiya, Cənubi Qafqaz ölkələri də eyni bazarı hədəflədiyinə görə, orta və uzunmüddətli ixrac bazarını təmin etmək üçün, Azərbaycan kənd təsərrüfatı məhsullarının qiymət və keyfiyyətinin artırılması, brendləşdirilməsi, stabil təminat sistemi, qiymətdə rəqabətin təmin edilməsi qaçılmazdır.

2) Turizm sahəsi

Azərbaycanın turizm sənayesi cədvəl 5-4-də olduğu kimi, son illər gözəçarpacaq səviyyədə inkişaf edir. Bakı mərkəzdə olmaqla ən müasir otellərin sayı artır, turizm xidmətlərinin gəlirləri artır.

Cədvəl 5-4 Azərbaycanda turizm sahəsinin inkişafı

| İl | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Otellərin sayı | 499 | 508 | 514 | 530 | 535 |
| Turizm sahəsinin gəlirləri（mln dollarla） | 766.6 | 1203.9 | 1479.0 | 1600.2 | 1633.4 |

＊Doing business in Azerbaijan 2015（Azpromo nəşri）

Doing business in Azerbaijan 2015 (Azpromo nəşri)-ə əsasən Azərbaycana səyahət etmiş turistlərin sayının 2009-cu illə müqayisədə 2014-cü ildə ötən 6 il ərzində 597 min nəfərdən 2 mln 159 minə (təxminən 4 dəfə) artığını görürük. Bundan sonra da bu artımın davam edəcəyi gözlənilir. Bunu Azərbaycan höküməti Avropanın əsas şəhərlərində turizm mərasimlərində iştirak etməklə bərabər, viza proseduralarının sadələşməsi, beynəlxalq iclasların və məclislərin, yarışların Azərbaycanda keçirilməsinə dair aktiv çağırışlar etməyinin nəticəsi kimi qiymətləndirmək olar. Üstəlik 2016-cı ilin fevral ayından etibarən Yaponiya, Cənubi Koreya, Sinqapur da daxil olmaqla 12 ölkəyə qarşı hava limanında vizanın alınması sisteminə keçərək, xaricdən gələcək turistlərin sayının daha da artmasına çalışır. Xüsusilə son illər, yaxın turizm ölkələri olan Türkiyə və Misirdə vəziyyətin stabil olmaması və Azərbaycanda manatın kursunun

[7] Azərbaycan hökümətinin internet səhifəsi
（http://azerbaijan.az/portal/index_e.html?lang=en2016.0116）

aşağı düşməsi xaricdən gələn turistlər üçün mükəmməl bir şans olduğunu yerli turizmlə məşğul şəxslər intervyuya cavablarında qeyd edirdilər.

Həmçinin, turizm sahəsinin dirçəldilməsi üçün daha bir mövzu Eko Yaşıl Turizmdir. Bu, qarışıq şəhər həyatından ayrılmaqla regionlarda kənd evlərində qalmaqla, regionların mədəniyyətinin, təbiətinin, burada yaşayışın keyfini çıxarmaq məqsədi daşıyır. Mədəniyyət və Turizm Nazirliyi, Eko Yaşıl Turizmin dirçəldilməsi üçün, qalma məkanlarının internet vasitəsilə rezerv edə biləcək elektron saytın hazırlığı ilə məşğuldur. Hal-hazırda, hər regionda olan kordinatorlar vasitəsilə rezerv etmək mümkün olduğu üçün, xaricdən ayrı-ayrı şəxslər formasında səyahətə gəlmək asan deyil. Eko Yaşıl Turizm sahəsi turizm sənayesinin dirçəldilməsi ilə bərabər, Bakı regionundan başqa digər regionlarda da yeni iş yerlərinin açılması, gəlir mənbəyinin əldə edilməsi anlamına gəlir.




Şəkil 5-1 Eko Yaşıl Turizmlə bağlı
Sənəd

Azərbaycan turizminin problemləri kimi, yolların infrastrukturunun və yaşayış, qalma binalarının (otellərin) hazır olmamaları səbəb ilə, turizm mənbələrinə gediş-gəlişin çətin olması, üstəlik qonşu ölkələr Ermənistan və Gürcüstanla müqayisədə qalma yeri (otel), yemək, hərəkət (bir yerdən digərinə) və s üzrə turizmlə məşğul olan şəxslərin qonaqpərvərliyinin və biznes təfəkkürünün aşağı olması, eyni zamanda digər ölkələrdən nəqliyyat vasitələrinin az olması göstərilə bilər.

 

Şəkil 5-2  Bakı ətrafında hazır olmayan yollar həmçinin yaşayış yerləri

Beləliklə, Azərbaycanın turizmlə bağlı orqanlarından və təhsil orqanlarından Yaponiyanın qonaqpərvərliyinin maarifləndirmə işi və müasir turist idarəetmə sistemləri də daxil olmaqla turizm sahəsinə Yaponiyadan investisiya yatırımları və şirkətlərin çıxışı, turizm şirkətlərinin qarşılıqlı əməkdaşlığı və s-yə ümid bəslənilir.

(6) Gələcək işlər haqqında fərziyyələr

Hokkaydo şirkətlərinin güclü tərəfləri və maraqları fonunda, Azərbaycanla özəl sektorda əməkdaşlığı düşündükdə, kənd təsərrüfatı, qida emalı əsas mövzuya çevrilir. Azərbaycanda əsas problemlərdən olan kənd təsərrüfatı məhsullarının istehsal gücünün artırılması və keyfiyyətin stabil saxlanılması, brendləşdirmək üçün Hokkaydonun zəngin təcrübəsi və texnologiyaları töhvə verə bilər. Həmçinin region iqtisadiyyatının inkişafını sürətləndirər, stabil iş yerlərinin yaradılacağı ərzaq emalı sənayesi Azərbaycan regionlarının inkişafı üçün həlledici rol oynaya bilər.

Digər tərəfdən, resursların inkişafına və neft-kimya sahəsinə Azərbaycan tərəfi olaraq, Yaponiyanın investisiya yatıracağına ümidlər olsa belə, bu sahədə Hokkaydo şirkətlərinin təcrübələri olmadığından cavab verə bilməzlər.

Sonda, 1-ci araşdırma zamanı, Azərbaycan tərəfində turizm sahəsində Hokkaydo ilə əlaqələrin qurulmasına maraq olduğu dəqiqləşdirildiyindən, özəl sektorda əməkdaşlığın mümkünlüyü aşağı olduğuna baxmayaraq, Azərbaycanla mübadilələrin inkişafı məqsədilə bundan sonrakı çıxış planlarına bir hissəsi qeyd olunacaqdır.

① Kənd Təsərrüfatı Avadanlıqları

Qeyri neft sektorununun inkişafı məqsədilə kənd təsərrüfatının müasirləşməsi və kənd təsərrüfatı məhsullarının ölkə daxili və xarici ehtiyacları ödəməsi sistemi hökümət tərəfindən qurulmaqdadır. Xüsusilə, buğda, qarğıdalı və kartof kimi əsas qida məhsullarında özünü tam təmin etmək istəyir. Südçülük təsərrüfatı inkişaf etmiş, qədim dövrlərdən bu yana milli qoyunçuluq adət-ənənələri qalmış, süd, mal əti, toyuq əti və s istehsalı da həyata keçirilir.

Azərbaycanda kənd təsərrüfatının problemləri kimi, istehsal mərhələsində kənd təsərrüfatı üçün dərmanlar, gübrələr, texnikanın stabil təminatı, yüksək keyfiyyətli toxum və mal-qara təminatı vasitəsilə istehsal qabiliyyətinin yüksəldilməsi, daşınma mərhələsində qoruma və nəqliyyatda məhsulun keyfiyyətinin aşağı düşməsinin qarşısının alınması, beynəlxalq bazarda brendləşdirilməsi və s göstərilə bilər.

Hokkaydoda hər fermerə bir ev üçün təxminən 23.4 hektar becərilmə sahəsi verilir ki, bu göstərici ilə Hokkaydo Yaponiyanın digər prefekturaları ilə müqayisədə 14.6 dəfə geniş olması anlamına gəlir. Kənd təsərrüfatının maşınlaşması da davam etdirilməkdədir (2014-cü il, Hokkaydo Kənd Təsərrüfatı Siyasəti bölməsi). Xüsusilə, Hokkaydonun sahib olduğu texniki avadanlıq kimi kiçik həcmli yığım maşınlarını nümunə göstərmək olar. Bu maşının özüməxsus üstün cəhətləri kimi böyük həcmli maşınlardan fərqli olaraq, daha aşağı qiymətə olması və idarəedilməsi ilə xidmətinin asan olması göstərilə bilər. Hokkaydonun geniş müxtəlif sahələrinin şərtlərinə uyğun olaraq müştəri reaksiyası nəzərə alınmaqla yaranmış kifayət qədər dözümlü və texniki dəstəyinin olması da qeyd edilməlidir. Azərbaycanda hədəf seçilmiş məhsullara heyvandarlıq otları, kartof, buğda və s. Hokkaydo ilə ümumi olanları vardır. Xüsusilə, fermer üçün olan becərmə sahəsi 5 hektardan 25 hektaradək ailə idarəsində olan kiçik və orta fermerlər üçün Belarus və Avropa İttifaqı ölkələrinin böyük həcmli maşınlarındansa Hokkaydo texnikası Azərbaycanda məhsul yetişdirilməsi üçün daha əlverişli hesab edilir.

Yaponiya şirkətlərinin Azərbaycana çıxışını düşündükdə, problem və ya həlli yolları kimi, ilk öncə Azərbaycan fermerlərindən tələb olunan konkret kənd təsərrüfatı maşınını seçib, uyğun qiymət şərtləri ilə əlaqədar məlumat toplanması vacibdir. Üstəlik, maşınların xarab olması və təmiri zamanı ehtiyat hissələrinə və xidmət servisinə ehtiyac vardır. Gübrə, kənd təsərrüfatı üçün dərmanların istifadəsi və texnikanı idarə edəcək, əlaqədar texnikanı quraşdıracaq ümumi kənd təsərrüfatı məhsullarının istehsal gücünün artırılması məqsədəuyğundur. Həmçinin, Azərbaycanda "Aqrolizinq" və "Aqrokredit" kimi açıq səhmdar cəmiyyətləri hökümətin kənd təsərrüfatının dirçəldilməsi strategiyasını dəstəkləyirlər və bu qurumlarla əməkdaşlıq etmək də faydalı ola bilər.

Texnologiyasını tədbiqi ilə ümid bəslənilən nəticə kimi, kiçik həcmli texnikanın tədbiqi ilə fermerlərin ağır əməkdən azad olması, məhsul yığımı dövründə qısa zaman ərzində işi ərsəyə gətirdiyi üçün, kənd təsərrüfatı məhsullarının xarab olması və itkiyə məruz qalmasının qarşısının alınması göstərilə bilər. Eyni zamanda maşınlaşmanın inkişafı ilə əkin sahələrinin genişləndirilməsi, yetişdirilən məhsulun keyfiyyətinin artırılmasına nail olmaq mümkündür.

| Azərbaycanın ehtiyacları | Uyğunluq | Hokkaydo Texnologiyası |
|---|---|---|
| ・Becərilən torpaq sahələri ensiz, kiçik və orta fermerlər çoxdur.<br>・Otlaq sahələri və kartofun təminatı qeyri-stabildir.<br>・Kiçik və orta səviyyəli fermerlərin texnika ilə təchizi gecikir.<br>・Yığım işi avadanlıq və əllə görüldüyünə görə ağır əmək sərf olunur və effektivlik yoxdur. | Texnika transferi<br>Kadr yetişdirilməsi<br>Nəzarət sistemi | ・Mövsümə uyğun iş görülməsi və keyfiyyətli məhsul yığımı mümkün edən dözümlü kiçik və orta kənd təsərrüfatı maşınları.<br>・Soyuq ərazilərdə otlaq istehsalının keyfiyyətinin artırılması<br>・Yüksək keyfiyyət tələb edən müştərinin tələbini əks etdirən yaxşılaşdırılmış yüksək keyfiyyətli istifadəsi asan quruluş və xidmətin keyfiyyətinin artırılması. Kollektiv kənd təsərrüfatı və heyvandarlıq, kənd təsərrüfatı idarəçiliyində zəngin təcrübə, texnika və biliklər. |

【Problemlər və həlli yolları】

・Yerli fermerlər təkbaşına texnika almaqda əziyyət çəkirlər／Yerlərdə lazımı yığım texnikasının müəyyənləşdirilməsi və uyğun qiymətin qoyulması

・Azərbaycanın müxtəlif iqlim şəraitlərinə və kənd təsərrüfatı formasına uyğun yerlərdə texnikanın tədbiqi təcrübələri

・Yerlərdə kənd təsərrüfatına dəstək qurumları ilə əməkdaşlıq etməklə kiçik və orta fermerlərin sistemləşdirilməsi və satışın təminatı

【Ümid bəslənilən nəticə】

・Ağır əməkdən azad olma／mövsümə uyğun yığım, işin və istehsalın effektivliyi və yüksək keyfiyyət／ kənd təsərrüfatı məhsullarında xarab olmaların və itkinin azaldılması／məhsulların təkmilləşdirilməsi

・Özünü təminatın inkişafı və ixracat potensialının təminatı, fermerlərin stabil gəlir əldə etmələri, qeyri-enerji sektorunun inkişafı

Rəsim 5-10 Gələcək biznes çıxış planları Kənd Təsərrüfatı texnikası


Otların qablaşdırılması üçün orta ölçülü kəsmə texnikası
IHI Star şirkəti


Kənd Təsərrüfatı dərmanlarını paylayan maşın
Toyo Kənd Təsərrüfatı maşınları şirkəti


Kiçik ölçülü kartof yığan maşını
Sanei Kogyo şirkəti

Şəkil 5-3 Azərbaycanda tədbiq edilə biləcək Hokkaydo kənd təsərrüfatı maşınları nümunələri

② Qida emalı sahəsi

Kənd Təsərrüfatı sahəsi ilə bərabər Azərbaycanda qida emalı sahəsinin dirçəldilməsi də dövlət strategiyası kimi "Azərbaycan 2020, Gələcəyə baxış" "Prezident fərmanı" ilə mövzu olaraq qaldırılır. Bu dövlət strategiyasında idxal məhsulları ilə mübarizə apara biləcək yerli qida məhsullarının istehsalı və ixrac məhsullarının növünün artırılması həmçinin əlavə dəyərin təkmilləşdirilməsi nəzərdə tutulur.

Hal-hazırda, Azərbaycandan ixrac olunan emal olunmuş məhsullar kimi süd məhsulları, çay, tərəvəz, meyvələrin qablaşdırılması və s olsa da, emal texnologiyası Türkiyə və digər MDB ölkələrindən geridə qaldığına görə Rusiya və digər ətraf ölkələrin bazarları ilə kifayətlənmiş olur. Gələcəkdə HACCAP[8] da daxil olmaqla, keyfiyyətə nəzarət və brendləşdirmə kimi rəqabət gücünün artırılması əsas məsələ olacaqdır.

Digər tərəfdən, Azərbaycan müxtəlif iqlim qurşaqlarına malik olduğuna görə müxtəlif növ meyvə ağacları və otları əkilir amma onlar lazımı qədər məhsul olaraq istehsal edilmir. Hokkaydo da daxil olmaqla (Qutu 5-1-ə göz gəzdir), Yaponiyada bunları material olaraq istifadə edəcək funskional qida ehtiyacları yüksəkdir və Azərbaycandan xammal və birinci növ emal məhsullarının gətirilməsi düşünülə bilər.

Artıq Mərkəzi Asiya və s-də biyan yetişdirilməsini həyata keçirdən Yaponiya şirkəti də vardır və həmin şirkət artıq Azərbaycanda da fəaliyyət göstərməkdədir.

Hər iki tərəfin problemləri və ehtiyacları fonunda Azərbaycana Hokkaydo texnologiyasını və biliklərini tədbiq etməklə hər iki ölkənin qida sənayesinin inkişafına töhvə verəcək layihələr düşünülə bilər.

Cədvəl 5-5 Azərbaycanda mövcud olan əsas meyvə ağacları və onların sağlamlığa xeyirləri

| Məhsulun adı／region | Müsbət təsirləri və s |
|---|---|
| 1. Nar<br>Göyçay, Abşeron | Narın qabığının qurudulmuş forması dərman kimi istifadə edilir. Tərkibi alkaloid, isoperçerin, tannin kimi maddələrlə zəngindir. Şirəsini içdikdə qarın ağrılarına (su kimi getməsi) xeyirlidir və zəhərlənmədən təmizlənmə effekti yüksəkdir. Nar şirəsi anemiya xəstələrinə müsbət təsir göstərir. |
| 2. Xirnik<br>Zaqatala, Gədəbəy, Aqstafa, Tovuz, Xanlar, Qazax | Vitamin C, K, və B növləri ilə zəngindir. Qan dövranını yaxşılaşdırır, hemostatik təsirə malik olduğu üçün, qədim zamanlardan suyundan xalq təbabətində müalicə vasitəsi kimi istifadə edilir. Həmçinin son zamanlar tozcuqlardan yaranan allergiyaya güclü təsir etdiyindən yarpaqlarından çay kimi istifadə edilir və onun tərkibində olan maddələrdən hazırlanmış əlavələr şəklində emal edilərək məhsul kimi satılır. |
| 3. Heyva<br>Göyçay, Ordubad, Babək, Naxçıvan, Ağdam, Cəbrayıl | Kalium, kalsium, maqnezium, fosfor, dəmir, A vitamini və s ilə zəngindir.<br>Dərman effekti var, mədə pozuntuları və damar xəstəliklərinə xeyirlidir. |
| 4. Feyxoa<br>Bütün regionlarda | Tərkibi yodla zəngindir, zob və ateroskleroz xəstəliklərinə müsbət təsir göstərir. Bundan əlavə, Vitamin C çatışmamazlığına, mədə-bağırsaq xəstəliklərinə, qastritə və s xeyirlidir. Feyxoa yağı iltihab əleyhinə maddə kimi dəri həkimləri tərəfindən istifadə olunur. |

[8] BMT Qida, Kənd Təsərrüfatı Orqanı (FAO) və Ümumdünya Səhiyyə Təşkilatı (WHO)-nın ümumi orqanı olan qida qaydaları (kodeksi) üzvləri birliyi tərəfindən qida gigiyenasına nəzarət üzrə beynəlxalq standartlar, qidanın hazırlanması, emal prosesi üzrə bütün mərhələlərdə baş verə biləcək yoluxucu xəstəliklərin zərərlərini təhlil edib, onun nəticələrinə uyğun olaraq, yaradılma prosesinin bütün mərhələləri üzrə hansı qaydalara riayət etmək lazım olduğunu qərarlaşdırıb, bunu davamlı olaraq müşahidə etməklə, məhsulun təhlükəsizliyini təmin edəcək gigiyenik nəzarət üsuludur.

| | |
|---|---|
| 5. Dəniz ağtikan (Облепиха)<br>Şəki, Zaqatala | Vitamin B1, B2, B3, B6, C, E, K, dəmir, kalium, kalsium, maqnezium və s maddələrlə zəngindir. Azərbaycanda olan dəniz ağtikanı (Rusiya növü) eyni nəsildən olan çay tikanı (Çin növü) ilə müqayisədə meyvəsi böyük olein turşusu, linol turşusu, linolen turşusu və yağ turşuları ilə zəngindir, yağlarda vitamin E külli miqdardadır (soya yağında olandan 20 dəfə çox). Tərkibində olan C vitamini Kividə olandan 3-6 dəfə çox, tərkibində olan Saponin Koreya yarımadası jenşeninin tərkibində olandan 4 dəfə çoxdur. |
| 6. Zoğal<br>Xaçmaz, Quba, Şəki, Zaqatala, İsmayıllı | Zoğal dərman təsirli meyvədir. Güclü təmizləmə effekti, qan dayandırma effekti və qızdırmasalan təsirə malikdir. Dərman preparatların hazırlanmasında istifadə olunur. Şəkər xəstəliyi, kəskin bel ağrıları, damar bərkimələri, prostat hipertrofiyasına xeyirlidir. |

＊ Hokkaydo Universiteti Kənd Təsərrüfatı fakültəsi, prof. Takahaşi Suzukinin materialları və araşdırma qrupunun yerlərdə apardıqları dinləmələr nəticəsində qurulmuş cədvəldir.

### Qutu 5-1 Hokkaydoda funksional qida sahəsinin nümayişi

- Soyuq iqlimə sahib, istifadə edilməyən dağlıq əraziləri olan Hokkaydo Yaponiya daxilində dərman mənşəli bitkilərin yetişdirilməsi və istehsalına uyğun region olmaqla, hal-hazırda Hokkaydo adası daxilində müəssisələrin işləri fəal şəkildə davam etdirilir. Ada daxilində funksional qida məhsulları ilə bağlı biznesi dirçəltmək üçün Hokkaydo Bio Biznes Sənaye Assosasiyası da beynəlxalq arenaya çıxışı qarşısına məqsəq qoyan tədqiqat konfranslarını təşkil edir.
- Azərbaycanda sadəcə biyan deyil, dağlıq ərazilərdə müxtəlif növ bitkilər vardır. Bu bitkiləri funksional qida məhsullarının xammalı kimi hər iki ölkənin biznes dirçəlişinə töhvə verəcəyi düşünülür.

Şimal ərazilərinə uyğun meyvə ağacları, dərman mənşəli bitkilərlə bağlı iş nümunələri (Hokkaydo)

| Şirkətin adı | Şəhərin adı | İcmalı |
|---|---|---|
| Yubari Tsumura şirkəti | Yubari şəhəri | 1999-cu ildə yaradılıb. Hokkaydonu əsas məkan seçməklə dərman bitkilərinin emalı ilə məşğul olur. Dərman bitkilərinin emalını genişləndirmək üçün müəssisələrin sayını artırmaqdadır. Yetişdirilən sahə 2020-ci ilədək 3 dəfə böyüməklə 10 mln $m^3$ olacağı gözlənilir. 2015-ci ildən dərmanlar üçün istifadə edilən dərman ağaclarını 4200 ədəd əkməyə başlamışdır. |
| Oji Holdings | Şimokava şəhəri | 2013-cü ildə Şimokava şəhəri ilə dərman bitkilərinin tədqiqatı ilə bağlı anlaşma əldə edildikdən sonra, dərman bitkilərinin yaradılması və yetişdirilməsi həyata keçirilmişdir. Böyük miqdarda yetişdirməklə xərclərin azalmasını reallaşdırmaq üçün böyük sahələrə malikdir və burada maşınlaşmış Hokkaydoda yüksək əlavə dəyərlə məhsullaşdırma tədqiqatı işləri aparılır. |
| Endo-Gumi şirkəti | Mukava şəhəri | Yaponiya məhsulu olan qarağatın yetişdirilməsi və emalı ilə məşğul olur. Xüsusilə mürəbbələr və kosmetika istehsalında istifadə edilir. Regionun xüsusi məhsulu kimi brendləşdirilir.<br>http://www.endou-gumi.co.jp/berry/top.html<br><br>Çörək pastası Meyvə sousu |

＊Mətbuat çıxışları sənədləri əsasında HIT tərəfindən hazırlanmış cədvəl




Rəsim 5-11 Gələcək çıxış planı (Qida emalı sahəsi)

**Qutu 5-2 6-cı sənaye sahəsi olması ilə turizmin dirçəlməsində kənd təsərrüfatı əməkdaşlığının mümkünlüyü**

Bu araşdırmada Azərbaycan hökuməti, Təhsil Orqanları, Mənfəət Güdməyən Təşkilatlardan (NPO) turizm sahəsində Hokkaydodakı kadr yetişdirilməsi ilə bağlı ehtiyaclar dəqiqləşdirildi. Hazırda, Azərbaycanda Bakı şəhərini mərkəz götürməklə Avropa və Amerika əsilli otellərin filiallarının gəlməsi davam etdirilir və beynəlxalq tədbirlərin buralarda keçirilməsinə çağırışlar vasitəsilə turist gəlişində uğurlar qazanılır. Digər tərəfdən, regionlara getdikdə yolların və yaşayış yerlərinin və s turizm infrastrukturunun inkişafı gecikir.

Bununla belə, regionlarda turizmin inkişafı üçün heç də Bakı qədər böyük ölçülü investiyalara ehtiyac yoxdur. Xüsusilə, Azərbaycan hökuməti strateji mövzu seçdiyi kənd təsərrüfatı və qida emalı sənayesi və turizmi birləşdirməklə bütün regionlarda iş yerlərinin çoxalmasına ümid bəsləmək olar.

Yaponiya hökuməti kənd təsərrüfatı, emal sənayesi, turizm və xidmət sahəsində əməkdaşlığı inkişaf etdirməklə 6-cı sənaye sahəsinin[9] inkişaf etdirilməsini qanuniləşdirib, regionların dirçəlməsi üçün çalışır. Hokkaydo Yaponiyada bu sistemdən ən çox yararlanan regiondur. Konkret misallar aşağıdakı kimidir. Azərbaycan, Bakı ətrafı turizm yerlərinin ecazkarlığını artırmaq istiqamətində, südçülük təsərrüfatı və şimal ərazilərinə uyğun meyvə bitkilərinin yetişdirilməsi kimi işlərin genişlənməsinə ümid bəsləmək olar.

[9] 6-cı sənaye sahəsi 1-ci sahə olan kənd təsərrüfatı və balıqçlıq nazirliyi , kənd təsərrüfatı məhsullarının istehsalı ilə kifayətlənməyərək, onları xammal kimi istifadə etməklə, emal məhsullarının hazırlanması, satışı, turistik bağların salınması kimi regionun resurslarını istifadə etməklə xidmət sahəsi və s-i, 2-ci, 3-cü sənaye sahələri kimi yeni dəyər qoymaqla inkişafını nəzərdə tutur.

①Takahashi Bokujo şirkəti (istehsal-emal-birbaşa satış-restoran)

**İş fəaliyyətinin icmalı**

○260 baş südçülük üçün inək saxlayıb, il ərzində təxminən 1,200ton çiy süd istehsal edilir.
○Birbaşa idarə olunan mağazalarında öz fermalarında hazırlanmış çiy süddən istifadə olunmaqla kremlər, pudinqlər və digər şirniyyat növləri, dondurmalar, içməli qatıq nümunələri və s emal olunmuş məhsulların birbaşa satışı həyata keçirilir.
○ Yerli tərəvəzçiliklə məşğul fermerler 9 ev birləşib, tərəvəzin birbaşa satış məkanı və yerli məhsullardan istifadə etməklə restoran açmışlar. Günorta yeməyində təzə tərəvəzlər təklif olunur.

**Biznes modeli**




② Berry Farm şirkəti (Turistik Kənd Təsərrüfatı bağı)

**İş fəaliyyətinin icmalı**

○Orqanik kənd təsərrüfatı üsülu ilə 16 növ qarağatın becərilməsi.
○Turistik Kənd Təsərrüfatı bağı açıb, turistlərə birbaşa qarağat satışı və dərmə təcrübəsi təklif etmək. Turizmlə məşğul şəxslərlə əməkdaşlıq edəcək turizm məhsulunun yaradılması.
○2012-ci ildə 6-cı sənaye sahəsinin ümumi işlər planı üzrə sertifikat əldə etmişdir. Öz şirkətinin qarağatını və yerli fermerlərdən toplanmış tərəvəzlərdən istifadə olunmaqla 50 növdə desertlərin təklif olunduğu kafe yuxarıda adı çəkilən bağda yaradılmışdır.

**Biznes modeli**




| | |
|---|---|
|  |  |
| Nümunə 1. Takahaşi Nojo şirkətinin müəssisəsi və emal məhsulları | Nümunə 2. Berry Farm şirkəti istehsal edir Qarağat və emal malları |

＊HIT tərəfindən hazırlanıb.

# 6 Azərbaycanda Hokkaydo şirkətləri ilə biznes münasibətlərinin qurulmasının mümkünlüyü

(1) Hokkaydo şirkətlərinin gələcək biznes çıxışları haqqında

Bu araşdırmanın nəticəsinə uyğun olaraq, Hokkaydo şirkətlərinin hədəf ölkədə biznes işlərinin görülməsi zamanı olacaq addımları aydınlaşdırmaq.

1-ci mərhələdə, bu dəfəki araşdırmanın tərkibi fonunda, konkret hədəf regionla və məhsulla, texnologiyaya diqqəti cəmləşdirib, həmin sahə ilə bağlı kifayət qədər məlumat toplamaq. Xüsusilə, Azərbaycan şirkətlərindən sadəcə məlumat aldıqda reallığı dəqiqləşdirmək olsa da, ola biləcək problemlərini dərk etmək bir çox hallarda mümkün olmur və ölkə daxilində həmçinin Rusiya və Türkiyə kimi ətraf ölkələrin məlumatlarını da uyğun şəkildə dəqiqləşdirib, işin uyğunluğunu lazımı qədər dəqiqləşdirmək lazımdır.

Növbəti mərhələdə, işi konkret olaraq təsəvvür edib, biznes mümkünlüyünün fərziyəsini qurmaqla, onun mümkünlüyünü dəqiqləşdirmək. Şirkətin texnikası və məhsulunun yerli mühitə və sistemə uyğun olması ilə bağlı texniki tərəfi ilə bərabər, nəqliyyat və gömrük xərclərini də konkret olaraq aydınlaşdırmaqla, dövr zamanı problemləri üzə çıxartmaq. Bu zaman, yerlərdə bel bağlayacağımız əməkdaşlara ehtiyac duyulacaq amma həmin tərəfdaş gələcəkdə biznes partnyoru ola bilər deyə, seçim zamanı sadəcə investisiya məbləği və biznes sahəsini deyil, ölkə daxili və xaricindəki qiymətləndirmələri də dəqiqləşdirmək gərəkir.

Beləliklə, araşdırma və sübutlar nəticəsində, biznes mümkünlüyü dəqiqləşərsə, konkret satış ünvanı və məhsulu düşünməklə, biznes plan hazırlanmasına ehtiyac yaranacaq. Bu zaman, ödəmələr, əmək, investisiya dövriyyəsində yarana biləcək riskləri azaltmaq məqsədilə Yaponiya və Azərbaycan hökümətlərinin biznesin inkişaf etdirilməsinə dəstək layihələri ilə bağlı məlumatları dərk etməyə ehtiyac yaranır.

Cədvəl 6-1 Hokkaydo şirkətlərinin xarici ölkələrə biznes çıxışlarına yönəlmiş fəaliyyətlərinə nümunələr

| Mərhələ | Konkret fəaliyyət nümunəsi |
|---|---|
| Araşdırma mərhələsi | ・Bu araşdırmanın məlumatları fonunda, əlavə məlumatın aydın olmayan tərəflərini dəqiqləşdirmək<br>・Şirkətin məhsulu, texnikasını hədəf ölkədə istifadə edilib-edilməyəcəyinin öyrənilməsi<br>・JICA və JETRO, regionlarda ofisləri olan şirkətlər, ölkə daxili və xarici əlaqəli orqanlarla məsləhətləşmələr |
| Real təcrübələr mərhələsi | ・Hədəf ölkədə əməkdaşların təmin edilməsi (dövlət orqanları, yerli şirkətlər, qruplar və s)<br>・Yerli nümayiş öyrənilməsi, ticarət yarmarkalarında iştirak və s<br>・Material və avadanlıqların daşınma metodu, müddəti və xərcini dəqiqləşdirmək<br>・Yerli hüquqi qaydalar, icazələr, lisenziyalar, ticarət ənənələri, problemlərin araşdırılması |
| Biznesləşməyə hazırlıq mərhələsi | ・Vergi, əmək və mühasibata uyğun metodların dəqiqləşdirilməsi<br>・İnvestisiya təşviqi və güzəştlərin tədbiqi üsulunun öyrənilməsi<br>・İnvestisiya tədarükü mühitinin və üsulunun öyrənilməsi<br>・Müqavilə bağlamağa yönəlik hazırlıqlar (satış müqavilələri, filial müqavilələri, birgə tədqiqat müqavilələri və s) |

(2) Azərbaycana biznes çıxışları ilə bağlı diqqət yetirməli məqamlar

Dünya Bankı 2015-ci ildə açıqladığı "Doing Business 2016"-da dünyada biznes fəaliyyəti ilə məşğul olmağın asan olduğu ölkələr reytinqində Azərbaycan 189 ölkə arasında 63-cü sırada qərarlaşıb. Ötən ilin reytinqində də eyni məqamda qərarlaşmışdı. Elektrik tədarükü, investisiya tədarükü, bankrot olma məsələsinin həlli ilə bağlı tədbirlər Yaponiya ilə müqayisədə aşağı səviyyədədir. Xüsusilə, enerji tədarükü xərclərinin yüksək olması ümumi prioritetləri aşağı salan səbəb olmaqdadır. Digər tərəfdən, hökümət xarici investisiyalara aktiv şəkildə çağırışlar etdiyi üçün, işə başlamaq, vergi ödənişləri və əmlakın qeydiyyata alınması mühiti Yaponiyadan daha yüksək qiymətləndirilir. Buna baxmayaraq, 2015-ci il dekabr ayında milli əskinazın qiymətdən düşməsi və s fonunda kredit reytinqinin aşağı düşməsi davam etmişdir. Bu, gələn ilin qiymətləndirmələrində aşağı göstəricilərin olacağına səbəb olacaqdır.

Cədvəl 6-2 Azərbaycan və Yaponiyada biznes həyata keçirilməsinin asanlığının müqayisəsi (rəqəmlə)

| Ümumi | İşə başlama | Tikintiyə icazə | Elektrik tədarükü | Mülk qeydiyyatı | İnvestisiya tədarükü | İnvestorların qorunması | Vergi məsələləri | Ticarət | Müqavilə işləri | Bankrotla bağlı tədbirlər |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 63 | 7 | 114 | 110 | 22 | 109 | 36 | 34 | 94 | 40 | 84 |
| 34 | 81 | 68 | 14 | 48 | 79 | 36 | 121 | 52 | 51 | 2 |

Mənbə: Dünya Bankı "Doing Business 2016" (2015-ci il 27 Oktyabrda elan edilib) əsasında hazırlanmış cədvəl

Digər tərəfdən, Hokkaydo şirkətlərinin beynəlxalq biznesinin bütün sahələri ilə bağlı diqqət yetirilməli məqamlar Cədvəl 6-3-də qeyd etdiyimiz kimidir. Bu, beynəlxalq biznes təcrübəsi olmamaq, kiçik və orta sahibkarların iş miqyasının kiçik olması kimi Hokkaydoya xas xüsusiyyətlərdir və sadəcə Azərbaycana çıxış zamanı düşünüləcək problemlər deyildir. Həmçinin, logistic və daşımalar, dillə bağlı problemlər sadəcə Hokkaydo şirkətlərinə deyil bütün Yaponiya şirkətlərinə aid edilə biləcək ümumi problemlərdir.

Cədvəl 6-3 Hokkaydo şirkətləri ilə beynəlxalq biznes sövdələşmələrində diqqət yetirilməli məqamlar

- Hokkaydo ümumilikdə beynəlxalq biznes təcrübəsi zəif olduğundan öncədən hazırlıqlara ehtiyac vardır. Biznesdə vacib olan dil qabiliyyəti və ticarət bilikləri olan qurumlar və quruplarla əməkdaşlıq etmək tələb olunur.
- Məlumat toplamaq, məsləhətləşmələr, fəaliyyətə hazırlıq üçün hədəf ölkədə ofis yoxdur. Biznesin miqyası kiçik olduğundan böyük şirkətlərin dəstəyini əldə edə bilmədiyimiz hallar da çoxdur.
- Bu bütün Yaponiyanın problemidir, hədəf ölkədə nəqliyyat yolları və gediş gəliş yolları azdır. Dillə bağlı problemlər vardır.
- Ticarət üçün, gömrük xərcləri çox yüksəkdir və ticarət miqdarının balanslaşdırılmaması nəticəsində idxal həcmini ötəndə göndərmələr zamanı nəqliyyat xərcləri xeyli artır.

(3) JICA çərçivəsindən istifadənin öyrənilməsi

(2)-də qeyd etdiyimiz problemlər fonunda Hokkaydo şirkətlərinin növbəti cədvəldə (Cədvəl 6-3) olduğu formada JICA çərçivəsi ilə əməkdaşlıqla hədəf ölkələrdə biznes fəaliyyəti ilə məşğul olmaq olar. Ancaq, ofisin olmadığı Azərbaycan kimi ölkələrdə istifadə ediləcək sistem məhdudlaşa biləcəyinə diqqət yetirmək lazımdır.

① Özəl əməkdaşlıq işinin istifadəsi

Cədvəl 6-4-ün ①, ②, ③, ④, ⑤, ⑥, ⑦-də ilkin araşdırmaların, texniki-iqtisadi araşdırmaların, hədəf ölkədə tədbiq təcrübələri və s yükünü azaltmaq mümkündür. Nümunə üçün, IHI Star şirkəti Hokkaydonun Çitose şəhərində reallaşdırdığı "Geniş sahəli südçülük təsərrüfatı regionlarına uyğun kənd təsərrüfatı maşınlarının yayılması və inkişafı işi" (2013)-də yerli araşdırmalardan əlavə, ticarət yarmarkalarında iştirak, nümayişlər, nəqliyyat və xidmət sistemi haqqında fundamental FS araşdırmaları və s özəl sahədə əməkdaşlıq işin bir növü olan "İnkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafı üçün özəl sektorda texnologiyaların təşviqi və inkişaf etdirilməsi işi" kimi reallaşdırılıb, biznes fəaliyyətinin mümkünlüyünü hesablayırlar. Eyni zamanda, hədəf ölkə və hədəf şirkətin miqyası və s nəzərə alındığına görə Azərbaycanda istifadə zamanı öncədən JICA ilə dəqiqləşdirmələr aparmağa ehtiyac duyulur.

② Ot kökləri texniki əməkdaşlığı

QHT-lər, universitetlər, regional qurumlar, quruplar tərəfindən inkişaf etməkdə olan ölkələrin region əhalisini hədəf götürən beynəlxalq əməkdaşlıq fəaliyyətləri, JICA çərçivəsi kimi Ot kökləri texniki əməkdaşlığı adlandırılır. Bu layihədən istifadə etməklə regionlar və aidiyyatı qurumlar mərkəzdə olmaqla, qarşılıqlı inam münasibətləri və texnikanın transferi və s uzunmüddətli işlərin bazasını qurmaq mümkündür. Misal üçün, Aomori prefekturasının Fucisaki şəhərinin Hirosaki universiteti "Özbəkistan Respublikası alma yetişdirilməsi texnikasının müasirləşdirilməsi vasitəsilə fermerlərin həyat səviyyəsinin yaxşılaşdırılması işi" (2014)-i reallaşdırmış, yerlərdə (Özbəkistanda) texnikanın idarə olunması təcrübələrini keçirtməklə, bu işlərə rəhbərlik edirlər. Bu çərçivədə alma yetişdirilməsinə investisiya, avadanlıqların təqdimatını da reallaşdırır və regionların iqtisadi inkişafına töhvələr verirlər.

③ Digər işlərdə texniki əməkdaşlıqla bağlı

JICA-nın həyata keçirtdiyi texniki əməkdaşlıq işi və təmənnasız investisiya əməkdaşlığı və s inkişaf etməkdə olan ölkələrin inkişafına töhvə versə də, bu iş zamanı Hokkaydo şirkətlərinin texniki və maliyyə resurslarının istifadəsi ilə hədəf regionun biznesin inkişafına da dəstək vermək olar. Məsələn, hədəf regionda müxtəlif təbii fəlakətlərlə bağlı tədbirlər, infrastruktur işləri də həyata keçirilir. Bu işlər zamanı soyuq regionlara uyğun, Hokkaydonun texnoloji gücünü Azərbaycan tərəfinə JICA-nın işləri vasitəsilə reklam etmək və s düşünülə bilər.

Hokkaydo adasında JICA-nın Hokkaydo bürosu Beynəlxalq Mərkəzinin bir işi kimi, hədəf ölkələrdən də müxtəlif insanlar təcrübələrə gəlirlər. Bu təcrübi işlərin tərkibini dəqiqləşdirib, şirkətlərin texnikası və təcrübələri ilə hədəf ölkələrdən gələnlərin təcrübə məqsədini uyğunlaşdırmaqla hədəf ölkənin inşafına töhvə verəcəyi düşünülə bilər ki, bu zaman JICA mərkəzi ilə məsləhətləşmələr aparıb, təcrübələri keçirtməklə və əməkdaşlıq etməklə təcrübədən keçən insanlarla fikir mübadilələri aparmaq vasitəsilə ehtiyacları dəqiqləşdirmək və problemlərin öyrənilməsinə nail olmaq olar.

Cədvəl 6-4 Özəl müəssisələrin istifadə edə biləcəyi JICA layihələri haqqında

| | Layihənin adı | Müddət | Hədəf | Məqsəd |
|---|---|---|---|---|
| ① | Əməkdaşlığa Hazırlıq Araşdırması（PPP infrastruktur işi） | Müddətsiz | Yaponiya Dövləti Qeydiyyat Agentliyi | PPP infrastruktur layihələrini planlaşdıran Yaponiya qurumunun təklifi əsasında xarici investisiya və kreditlərdə yapon yenindən istifadəni şərt qoyan proyektlərin həyata keçirilməsi kimi, PPP infrastruktur işlərinin baza iş planlamalarının yaradılması və bu təklif işinin uyğunluğunun və effektiv olmasının yoxlanılmasını nəzərdə tutur. |
| ③ | Əməkdaşlığa Hazırlıq Araşdırması（BOP Biznes əməkdaşlığının inkişafı） | Maksimum 3 il | Yaponiya Dövləti Qeydiyyat Agentliyi | İnkişaf etməkdə olan ölkələrdə BOP biznesini planlaşdıran Yaponiya qurumunun təklifinə söykənərək, biznes modelinin inkişaf etdirilməsi, iş planının hazırlanması, paralel olaraq, JICA işi ilə əməkdaşlığın mümkünlüyünün öyrənilməsi və dəqiqləşdirilməsini nəzərdə tutur. |
| ④ | İnkişaf etməkdə olan ölkələrin social-iqtisadi inkişafı üçün özəl sahədə texnologiyanın təşviqi və inkişaf etdirilməsi işi | Maksimum 2 il | Yaponiya Dövləti Qeydiyyat Agentliyi | Yaponiya orqanının təklifinə uyğun olaraq, inkişaf etməkdə olan ölkənin hökümət nümayəndələrinin əsas hədəf seçməklə Yaponiyada olacaq təcrübələrə və yerli seminarlara, yerli model işlərinin həyata keçirilməsi vasitəsilə Yaponiya şirkətlərinin sahib olduğu mükəmməl məhsulları, texnikanı, sistemi və s-i dərk daha da təkmilləşməsi və inkişaf üçün istifadə mümkünlüyünün öyrənilməsi əsas məqsəddir. |
| ⑤ | Xarici investisiya və kreditlər | N/A | Yaponiya şirkətlərinin həyata keçirtdikləri layihələr | İnkişaf etməkdə olan ölkənin inkişafına investisiya yatıracaq özəl şirkətlərin işinə qarşılıq olaraq, kredit və yatırımlara dəstək olmaq. Özəl maliyyə qurumları tərəfindən kredit riskləri yüksək işlərə qarşılıq inkişaf etməkdə olan ölkədə cürəbəcürə iş nailiyyətlərinə sahib JICA riskləri üzərinə götürməklə çağırışlar həyata keçirməyə dəstək olmaqla işin reallaşmasında böyük paya sahib olmuş olur. |
| ⑤ | Kiçik və orta sahibkarlığın xaricdə biznes işinə dəstək, | 1 aydan 1 ilədək | Kiçik, orta sahibkarlıq və s ※1 | Kiçik və orta sahibkarların təklifləri əsasında mükəmməl texnika, ticarət avadanlığı və iş ideyası ilə inkişaf üçün problemlərin həllinin reallaşması |

| | | | | |
|---|---|---|---|---|
| | baza araşdırmaları | | | həmçinin ODA işi ilə əməkdaşlığın mümkünlüyünün öyrənilməsi üçün vacib olan fundamental məlumatların toplanması və iş layihəsinin hazırlanması ilə bağlı araşdırmaları həyata keçirtməklə inkişaf etməkdə olan ölkənin inkişafını sürətləndirməyi məqsəd qoymuşdur. |
| ⑥ | Kiçik və orta sahibkarlığın xaricdə biznes işinə dəstək işi - layihələşdirmə araşdırması - | 1 aydan 1 ilədək | | Kiçik və orta sahibkarların təklifləri əsasında texnika, məhsul və s-i inkişaf etməkdə olan ölkənin inkişafı üçün istifadə etmək mümkünlüyünün öyrənilməsini məqsəd qoyur. |
| ⑦ | Kiçik və orta sahibkarlığın xaricdə biznes işinə dəstək işi - yayılması və real təcrübələrin həyata keçirilməsi | 1-3 il təxminən | | Kiçik və orta sahibkarların təklifləri əsasında inkişaf etməkdə olan ölkənin inkişafına texnika, məhsullar və s-in yerlərə (ölkələrə) uyğunluğunu yüksəltmək məqsədilə real təcrübələr vasitəsilə onun yayılma işinin öyrənilməsini məqsəd qoyur. |
| ⑧ | Ot kökləri texniki əməkdaşlığı işi (regionlara təkliflər formasında) | 3 il ərzində | Təklif edən: Region qurumlar Reallaşdıran: Region qurumları və ya bu qurumların təklif etdiyi şirkətlər və ya qruplar | Beynəlxalq əməkdaşlıq düşüncəsinə malik Yaponiyanın QHT-ləri, universitet və regional qurumlar, qruplar tərəfindən inkişaf etməkdə olan ölkənin region əhalisini hədəf seçməklə beynəlxalq əməkdaşlıq fəaliyyətini, JICA tərəfindən ODA tamamən dəstəklənir və birlikdə xalqın iştirak etdiyi iş olur. |
| ⑨ | Könüllü özəl əməkdaşlıq | 1-3 il (3 aydan artıq qısa müddət də mümkündür) | Müxtəlif növlü Şirkətlər (böyük və kiçik, birləşmiş və s) | Özəl şirkətlərin işçilərinin gənclərin xarici əməkdaşlıq qrupları və xaricə könüllü olaraq inkişaf etməkdə olan ölkələrə ezam edilməklə şirkətlərin qlobal kadr yetişdirməsi və xaricdə iş görməsinə töhvə verməkdir. |

※1： Yaponiya qanunlarına əsasən yaradılmış Yaponiya Qeydiyyat Agentliyinin kiçik və orta sahibkarlarla (kiçik və orta sahibkarların ifadəsi kiçik və orta sahibkarlıqla bağlı qanunun 2-ci maddəsi həmçinin Yaponiya siyasi-maliyyə qurumunun 3-cü maddəsinin 2-ci bəndinə əsaslanır) həmçinin kiçik və orta sahibkar qrupların sistemi ilə əlaqədar qanunda göstərilən kiçik və orta sahibkarlar qrupunun bir hissəsin (iş əməkdaşlığı qurumu, iş əməkdaşlığı kiçik qurumu, müəssisələr birliyi, birgə iş birliyi, ticarət birlikləri) də, şirkət və ya qurumların yaradılmasından 1 il keçənləri ifadə edir.

Mənbə: JICA electron səhifəsi "Özəl şirkətlərlə istifadəsi mümkün olan JICA layihələri menyusu"-u əsasında hazırlanmışdır.
（http://www.jica.go.jp/activities/schemes/priv_partner/ku57pq00000ln4a3-att/priv_partner_JICA_business.pdf）

## 7 Azərbaycanla həmçinin ətraf ölkələrlə özəl sahədə əməkdaşlığa dair araşdırma qrupunun təklifləri (xülasə)

(1) Bir neçə ölkəni hədəf seçməklə miqyasın təmin olunması

Azərbaycanda ÜDM yüksək olsa da, əhali sayına baxanda yalnız tək bir dövləti (Azərbaycanı) biznes hədəfi seçmək o qədər də cəlbedici deyildir. Uyğun olaraq, bir neçə ölkəni hədəf seçməklə biznes strategiya qurmağa ehtiyac vardır. Azərbaycanı götürdükdə, sadəcə Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri deyil, Rusiya və Türkiyəni də daxil etməklə strategiya qurduqda bazarın miqyası olduqca böyümüş olur.

Bir neçə bazarı düşündükdə aşağıdakıları nəzərə almaqla bazarı seçməyə gərək vardır.

Cədvəl 7-1 Mərkəzi Asiya, Qafqaz ölkələri, Rusiya və Türkiyənin bazar miqyası

| Ölkənin adı | Azərbaycan | Monqolustan | Qazaxıstan | Qırğızıstan | Özbəkistan | Türkmənistan | Tacikistan | Gürcüstan | Ermənistan | Türkiyə |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalisi (mln nəfərlə) | 9.5 | 2.9 | 17.3 | 5.8 | 30.7 | 5.3 | 8.3 | 4.5 | 3 | 75.9 |
| Adam başına düşən ÜDM(dollarla) | 7,884 | 4,129 | 12,276 | 1,269 | 2,038 | 9,032 | 1,114 | 3,670 | 3,620 | 10,515 |

※Dünya Bankı (2015)

① Nəqliyyat yollarını paylaşa bilən bazarlar

Azərbaycanla biznesi düşündükdə daşınma yolları əsas problem olaraq qalır. Avadanlıqların daşınmaları zamanı sadəcə gövdə deyil, hissələrin təminatı da düşünülməlidir. Azərbaycan üçün, Gürcüstan, İran, Türkiyə ərazisindən istifadə etməklə daşınmalar həyata keçirilə bilər. İstifadə olunacaq yolu nəzərə alaraq, hədəf olacaq bazarları düşünməyə ehtiyac vardır. Uzunmüddət üçün hissələrin saxlanılacağı anbarlarla təmin olunmaq gərəkir.

Bu zaman, sadəcə hədəf olan bazar deyil, nəqliyyatın üzərində yerləşən Rusiya və Türkiyənin də bazar həmçinin anbar olaraq öyrənilməsinə ehtiyac duyulur.

② "Keçid Qapısı" funksiyasının öyrənilməsi

Hədəf ölkənin ixracına və texnika transferinə lazım olan sənəd və lisenziyaların əldə edilməsini düşündükdə, eyni sistemdən istifadə edə biləcək bir neçə ölkəni bazar etməklə bazarın miqyasının təminatını hədəfləmək effektli olardı. Məsələn, bütün Cənubi Qafqazı bazar kimi götürsək, Gürcüstan daşımalar üçün bazadır. Həmçinin, ödəmə və gömrük sistemini yaratmaqla, ingilis dilində biznes həyata keçirmək real olduğuna görə, Gürcüstanı Keçid Qapısı etməklə digər ölkələrə biznes çıxışları etmək mümkündür. Azərbaycanda dəniz və hava limanı sistemi inkişaf etdiyindən Rusiya, Mərkəzi Asiya ölkələri, Orta Şərqə olan çıxış baxımından xeyirli olsa da, Hokkaydodan nəqliyyat bazası kimi ingilis dilində biznes mühiti və viza əldə edilməsi məsələləri Gürcüstanla müqayisədə çətindir.

③ Dil və qida mədəniyyətləri oxşar olan bazarlar

(1) Qida və maşın növləri və s-in adi istehlakçılara təmin edilməsi biznesini düşündüyümüzdə, məhsulun izahı və keyfiyyətini sübut edən sənədləri hədəf ölkənin dilində izah etməyə ehtiyac vardır. Həmçinin B to B biznesi zamanı ilkin mərhələdə texnikanın idarə edilməsi ilə bağlı izahatlar və detalları ilə bağlı izah kitabçalarını Yaponiya tərəfi olaraq məsuliyyətlə hazırlamağa gərək vardır. Cənubi Qafqaz ölkələrində müqayisəli şəkildə demək olar ki, ingilis dilli sənədlərlə işləmək olsa belə, Azərbaycanda ən azı minimum səviyyədə rus dilində də hazırlıqlara ehtiyac vardır. Belə sənədlərdə yüksək keyfiyyətli tərcümələrə ehtiyac olduğuna görə və buna olan xərcləri düşündükdə eyni dildə olan bazarların yaradılması daha məqsədə uyğundur. Həmçinin, qida və xammal bazarı kimi düşündüyümüz zaman qida mədəniyyəti və dini qayda-qanunları da nəzərə almaqla bazar yaratmaqda fayda vardır.

(2) Ətraf ölkələri yandan öyrənmək üçün araşdırmanın həyata keçirilməsi

Yuxarıda (1)-də qeyd edildiyi kimi, hədəf regionu yandan araşdırıb, bazarın miqyasının təmin edilməsi və ümumi nəqliyyat yolunun öyrənilməsi, bir neçə ölkəni hədəf seçməklə hər növ risklərdən qaçılma üsullarının öyrənilməsi, hər hədəf ölkədə müsbət və mənfi konkret müqayisələrin aparılması özəl sektorda əməkdaşlıq üçün əhəmiyyətlidir. Bu araşdırmada araşdırmanın hədəfi olmuş sahələri aşağıdakı kimi yandan araşdırmaq mümkündür.

Cədvəl 7-2 Özəl sektorun inkişafına investisiya yatıracaq yandan araşdırma nümunəsi

| Hədəf texnika və xidmət | Yandan araşdırmanın tərkibi | Yandan reallaşdırmanın üstünlükləri |
|---|---|---|
| Kənd təsərrüfatı texnikası təminatı şəbəkəsinin yaradılması | Nəqliyyat yolu, xidmət, ümumi kadr hazırlığı, model yerlərin hazırlanması və s | Effektli təminat həmçinin davamlı xidmət, reklam üsulunun öyrənilməsi |
| Funksional qida üzrə beynəlxalq biznes mübadilələri | Ortaq emal müəssisələrinin mərkəzləşməsi, keyfiyyətə nəzarətin həmçinin resurs təhlükəsizliyi texnikasının təşviqi | Effektli emal, nəql, texnikanın təşviqi sisteminin hazırlanması |
| Hər ölkə hər rayon hər məsul işi və Hokkaydo regionlarının inkişafı ilə əlaqəsi | Hər ölkə ilə Hokkaydo regionları arasında əməldaşlıq yaradılması ilə hər iki tərəfin maraqlarına uyğun münasibətlərin qurulması. Bənzər işlərin ümumi reklam sisteminin yaradılması, ümumi keyfiyyət standartlarının müəyyən edilməsi və s | Hədəf ölkədə əməkdaşlıq edən qurumlarla rəqabətə söykənən müsabiqələr və ümumi reklam |

(3) Hokkaydoda məlumat paylaşımı və ətraf ölkələr arasında əməkdaşlığın inkişafı

Bu araşdırma nəticəsində biznes fəaliyyəti göstərməyi arzulayan şirkətlər, şəxsi biznes fəaliyyətinə təsirsiz olacağı çərçivədə daimi olaraq şirkətlər arasında məlumat paylaşımı şanslarına sahib olacaqlarına ümid bəslənilir. Xüsusilə, nəqliyyat, gömrük, qarşı tərəfin etibarlılığı ilə əlaqədar olan məlumatları bölüşdürməklə xərclərin və risklərin azalmasına nail olmaq olar.

Eyni zamanda, müxtəlif sahələrdən olan şirkətlərin əməkdaşlıq etməsi sayəsində paket iş görüşmələri mümkün ola bilər. Məsələn, heyvandarlıq üçün olan kənd təsərrüfatı texnikası ilə birlikdə soyuq regionlara uyğun müasir kənd təsərrüfatı ilə məşğul olan evlərlə təminat və inək peynindən istifadə etməklə enerji olan gübrənin istifadəsinə yönəlik bioketlə texnikası ilə təmin etməklə, Hokkaydo texnologiyasını və təcrübəsini nəzərə almaqla, südçülük təsərrüfatının müasirləşmə modelini yaratmaq düşünülə bilər.

Digər tərəfdən, bir ölkədə biznes uğurlu alınarsa, həmin uğurlu modeli ətraf ölkələrlə paylaşmaq, Hokkaydo şirkətlərinin bazarlarının genişlənməsi üçün ən təsirli reklam ola bilər. Bunun üçün daima Azərbaycan və ətraf ölkələr arasında şəbəkənin olub-olmamasını yoxlamağa ehtiyac yaranır. Həmçinin iş bir neçə ölkədə görüldükdə hədəf ölkələr arasında xoş şəbəkələr olarsa problemlərin həll olunmasını, ümumi kadr yetişdirilməsini, işlərdə funksional paylaşımı uğurla və qısa zamanda həyata keçirmək mümkün olar.